# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 06 (3330) Çərşənbə axşamı / 19-22 yanvar 2021-ci il Qiymәti 40 qәpik


# MOSKVANIN Qarabağ planı



**Lavrov açıqladı**

***Noyabrın 9-da imzalanmış üçtərəfli bəyanat əsasında Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa Rusiya sülhməramlılarının yerləşdirilməsi həmin tarixdən keçən iki aydan artıq müddətdə yeni müzakirələrin əsasını qoydu. Azərbaycan Ordusunun 30 illik işğala son qoyduğu Vətən Müharibəsindəki zəfərinə kölgə salmağa çalışan bir sıra qüvvələr Dağlıq Qarabağın bundan sonra Rusiyanın tərkibinə birləşdiriləcəyi, hətta gələcəkdə Moskva tərəfindən artıq tarixə qovuşmuş qondarma rejimin müstəqilliyinin tanınacağına dair iddialar ortaya atıb. Artıq bu iddialar ətrafında tərəflərin psixoloji müharibə apardığını da söyləyə bilərik.***



*Dağlıq Qarabağın müstəqilliyi heç kim tərəfindən tanınmır, o cümlədən Ermənistan tərəfindən. Bizim isə buna yaxın fikrimiz belə yoxdur*

■ **Dünən Rusiyanın xarici işlər nazirinin ənənəvi mətbuat konfransında Sergey Lavrov, nəhayət, bu iddialarla bağlı ölkəsinin mövqeyini ortaya qoydu. Rusiyanın baş diplomatının sözlərinə görə, Dağlıq Qarabağın müstəqilliyini heç kim tanımayıb, o cümlədən Ermənistan özü tanımayıb.**

"Dağlıq Qarabağın Rusiyanın tərkibinə daxil olması ilə bağlı ekzotik suala gəldikdə isə deyim ki, Dağlıq Qarabağın müstəqilliyi heç kim tərəfindən tanınmır, o cümlədən Ermənistan tərəfindən tanınmır. Bizim isə buna yaxın fikrimiz belə yoxdur", - deyə Rusiya XİN başçısı erməni jurnalistin təxribatçı sualını cavablandırarkən deyib. O, Rusiyanın Dağlıq Qarabağı öz tərkibinə qatmaq niyyətində olmadığını da bildirib.

"Hesab edirik ki, bu regionun bütün məsələləri burada yerləşən ölkələr tərəfindən, ilk növbədə, Azərbaycan və Ermənistan arasında həll olunmalıdır. Biz bu cür həll yolunu tapmağa yardım etməyə davam edəcəyik. Hansı ki, bu həll regionda sülhü və təhlükəsizliyi, ən əsas da burada hər zaman yaşayan insanların təhlükəsizliyini təmin edəcək", - deyə S. Lavrov qeyd edib. Lavrov erməni siyasətçilərə xəbərdarlıq da edib: "Erməni rəsmilərinin Qarabağla bağlı olduqca siyasiləşmiş bəyanatlar verməsi yəqin ki, gərginlik yaradır. Hesab edirəm ki, bu cür bəyanatlar verməkdən qaçmaq daha yaxşı olar", - Rusiyanın XİN başçısı bildirib.

Rusiyalı nazir vurğulayıb ki, biz artıq 44 günlük müharibə başlanana qədər bu cür bəyanatların şahidi olmuşuq: "Qarabağda və ya Qarabağ haqqında "Yeni müharibə, yeni ərazilər" kimi emosional bəyanatların şahidi olmuşuq. Şahidi olmuşuq ki, sözlər material qüvvəyə çevrilir. Biz indi Azərbaycan və Ermənistan rəhbərliyi arasında təmasların qurulmasına, tərəflər arasında etimad mühitinin yaranmasına diqqət yönəldirik. Bu, 11 yanvar Moskva görüşünün əsas məsələlərdən biri idi. Ümid edirəm ki, emosiyalar indi ikinci plana keçirilməlidir. İndi həm də Dağlıq Qarabağın statusunun prioritet məsələ kimi irəli sürülməsi üçün uyğun vaxt deyil. Sizə zəmanət verirəm ki, Rusiya sülhməramlılarının cavabdehlik daşıdığı zona, praktiki planda məhz Dağlıq Qarabağın statusu hazırda bu cür müəyyən olunub. Bu forma həm Azərbaycan, həm də Ermənistan tərəfinin maraqlarını təmin edəcək".

*Bəs ekspertlər bu barədə nə düşünür?*

■ **Politoloq Zaur İbrahimli hafta.az-a bildirib ki, Rusiya XİN başçısı Sergey Lavrovun Rusiya sülhməramlıları, Qarabağ bölgəsində yaşayan ermənilərin Ermənistanla əlaqələri barədə son açıqlamaları Moskvanın çoxdan bizə bəlli olan baxışını ortaya qoyur. Politoloq bildirib ki, Moskva bu məsələlərlə bağlı son günlərə qədər susmağa üstünlük verirdi, Azərbaycan cəmiyyəti və ekspertlərinin irəli sürdüyü suallar cavabsız qaldırdı.**

"Nəhayət, Lavrov danışdı və Moskvanın Laçın dəhlizinə nəzarəti özündə saxlamaq, Qarabağ ermənilərinin Ermənistanla əlaqələrini isə Azərbaycanın nəzarətinə verməmək məqsədi açıq bəyan edildi. Azərbaycan cəmiyyəti, ekspert icması, ictimai-siyasi xadimlər, millət vəkilləri, ziyalılar bu məsələləri qaldırırdılar və Rusiya sülhməramlılarının 10 noyabr Moskva bəyanatı ilə şərtlənən mandatdan kənara çıxdığını israrla vurğulayırdılar. Bununla Azərbaycan cəmiyyətinin mövqeyi, narahtlığı kifayət qədər aydın, qəti şəkildə vurğulandı və Kremldə bunun fərqində olmaya bilməzlər. Bununla belə, Lavrov faktiki olaraq Rusiyanın Qarabağ ermənilərinin hamisi olacağını açıq bəyan etməkdən çəkinmədi. Bu mövqe Rusiya Prezidneti Vladimir Putinin dəfələrlə təkrarladığı "Qarabağ Azərbaycan ərazisidir" mövqeyi ilə ziddiyyət təşkil edir.

Lavrov diplomtik ibarələrlə pərdələməyə çalışsa da onun yanaşması o deməkdir ki, Azərbaycan Qarabağla bağlı suveren hüquqlarının bir qismini güzəştə getməlidir. Bu, Azərbaycan üçün qəbuledilməz variantdır. Qəti mövqe Azərbaycan Prezidenti tərəfindən bəyan edilib, Bakının bu mövqeyi Türkiyə tərəfindən birmənalı dəstəklənir. Bu baxımdan Lavrovun açıqlamalarının qeyd-şərtsiz deyure və de-fakto hələ reallıq olacağı demək deyil. Bu, Moskvanın niyyətidir". Z.İbrahimli bildirib ki, Lavrov brifinqdə "Rusiyanın Qarabağın müstəqilliyini tanımaq fikri yoxdur" desə də, həmçinin əlavə edib ki, Qarabağ Rusiya sülhməramlıların məsuliyyət bölgəsidir. Daha sonra əlavə edib ki, davamlı sülh üçün Moskva kömək göstərəcək.

"Bütün bunlar Rusiyanın indiki halda yuxarıda qeyd etdiyim niyyətinə xidmət edir. Azərbaycanın suverenliyinin bir qismini humanitar məqsədlər üçün güzştə getsin. Yəni Laçın dəhlizinə, giriş-çıxışa, hərəkətə nəzarət edə bilməsin, qərar verə bilməsin. Qarabağ bölgəsində hər hansı addım rusların icazəsi, yaxud onlarla razılaşdırmaqla, onların nəzarəti ilə olsun. Qarabağ ermənilərinin Ermənistanla müstəqil, Azərbaycanın nəzarətindən kənar əlaqələri davam etsin və Bakının bu məsələlərdə söz haqqı olmasın. Bütün bunlar gerçəkləşəcəksə, onda Qarabağ erməniləri üçün ruslar faktiki olaraq xüsusi bir status, imtiyaz təmin etmiş olurlar.

*Lavrovun yanaşması o deməkdir ki, Azərbaycan Qarabağla bağlı suveren hüquqlarının bir qismini güzəştə getməlidir. Bu bizim üçün qəbuledilməz variantdır*

Səh. 5

## MÜSAHİB

# Bu il neftin orta qiyməti 50 dollar olacaq



**İlham Şaban,**
Neft Araşdırmaları Mərkəzinin rəhbəri

*Ötən il qlobal enerji bazarında müşahidə olunan gərginlik nisbətən sabitləşib. Təxminən, 1 aya yaxındır ki, dünya birjalarında neftin bir barrelinin qiyməti 50-55 dollar civarında dəyişir. Bəs, görəsən, neft bazarındakı sabitlik davamlı olacaqmı? Neftin builki qiyməti ilə bağlı verilən proqnozlar özünü doğruldacaqmı? Bu suallar ətrafında "Həftə içi" qəzetinin müsahibi Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabandır.*

*Azərbaycanda hökümətin proqnoz vermək qabiliyyəti arzuolunan səviyyədə deyil*

Səh. 5

## MÜSAHİB



**Elman Nəsirov,**
Milli Məclisin deputatı

■ ABŞ-da "güclüsən, haqlısan" prinsipi hökm sürür.

■ Birləşmiş Ştatların ikipartiyalı seçki sistemi çox cidd böhran keçirməkdədir.

■ Bu hadisələr Amerikanın dünyada demokratiyanın bayraqdarı olması ilə bağlı o mövqeni alt-üst elədi.

Səh. 3

## GÜNÜN FOTOSU...



Səhiyyə naziri Oqtay Şirəliyev peyvənd olundu...

## GÜNÜN SİTATI

*"Fransa Ermənistan və Gürcüstan kimi, Azərbaycanın da hər zaman dostu olub və istisnasız Cənubi Qafqazın bütün dövlətləri ilə sıx münasibətlər qurmaq istəyir"*



**Zaxari Qross,**
Fransanın Azərbaycandakı səfiri

## KARİKATURA




Qələbə bizimdir...

# "Qarabağa qayıtmaq istəyi artıq mübahisə predmeti deyil"

**Mahir Abbaszadə,**
Milli Məclisin deputatı, iqtisad elmləri üzrə fəlsəfə doktoru

Unutmamalıyıq ki, o oğulların şəhidliyi sayəsində məhz biz köçkünlərin ata-baba yurdları azad olunub

Səh. 6

## STATİSTİKA



**Azərbaycanda 2020-ci ildə kənd təsərrfüatı sahəsində məhsul istehsalında artım qeydə alınıb.**

2020-ci ildə kənd təsərrüfatında istehsal edilən məhsulun həcmi 8 milyard 428,9 milyon manat təşkil edib ki, bu da 2019-cu illə müqayisədə 2 faiz çoxdur. Kənd təsərrüfatında istehsal edilən məhsulun 4 milyard 028,4 milyon manatı bitkiçilik, 4 milyard 400,5 milyon manatı isə heyvandarlıq sahəsinin payına düşür.




Səh. 8

# 20 yanvar - yaddaşlara həkk olan qara tarix

## Xəbər lenti

### GUAM 2021-ci ildəki prioritet fəaliyyətini açıqlayıb



**Təşkilatın Milli Əlaqələndiricilər Şurasından hafta.az-a bildiriblər ki, bu il GUAM xarici tərəfdaşlar və beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişləndirəcək.**

Artıq GUAM ilə İsrail dövləti arasında əməkdaşlıq sazişi tam razılaşdırılıb, yaxın vaxtlarda sənədin imzalanması nəzərdə tutulub.

Eyni zamanda, yaxın gələcəkdə GUAM və Dəmir Yollarının Əməkdaşlığı Təşkilatı arasında əməkdaşlıq memorandumunun imzalanması planlaşdırılıb.

Məlumata görə, 2021-ci ildə GUAM ölkələri arasında rəqəmsal ticarət mərkəzinin yaradılması planı da var. Bu layihə üzərində iş gedir, artıq GUAM İnternet Platformasının yaradılması üçün baza doldurulur. Qeyd edək ki, bu il GUAM-a sədrlik Gürcüstana keçib. 2020-ci ildə Azərbaycanın təşkilata sədrliyi dövründə 30-dan artıq görüş keçirilib.

### Azərbaycan tezliklə "JF-17" qırıcılarını alacaq



**Azərbaycan nəhayət Pakistan-Çin birgə istehsalı olan JF-17 (Block III) qırıcı-bombardmançılarını almağa qərar verib və tezliklə bu təyyarələrin ilk partiyası Hərbi Hava Qüvvələrinin sərəncamına veriləcək.**

Bu məlumat Pakistanın Hərbi Hava Qüvvələrinin komandanı, aviasiya marşalı Mücahid Əhməd Xanın ötən həftə Bakıda apardığı danışıqlardan sonra bəzi yerli və Rusiya mənbələrində yayılıb. Həmin danışıqlarda o cümlədən Pakistanda Azərbaycan HHQ üçün pilotların hazırlanması müzakirə edilmişdi.

Azərbaycanın "JF-17" qırıcılarına maraq göstərdiyi, onları almaq üçün danışıqlar apardığı illər əvvəldən məlum idi. Bəzi məlumatlara görə, həmin təyyarələrin göstəriciləri Azərbaycanı o qədər də qane etmədiyi üçün müəyyən tərəddüdlər olub. Hərçənd daha sonra qırıcıların modernizə edilmiş ən yeni versiyasının (Block III variantı) alınması barədə anlaşma əldə edilib.

Bildirilir ki, Pakistan Azərbaycana yaxın 10 ildə 21 ədəd "JF-17" qırıcısı təchiz edəcək. Onların ilk partiyası bu ilin birinci yarısında çatdırılacaq. Azərbaycanın qırıcıların dəyərini neft və neft məhsulları ilə ödəməsi planlaşdırılır. Modernizə edildən sonra qırıcıların göstəriciləri Azərbaycanı qane edir və onlar eyni sinifdən olan digər qırıcı-bombardmançılardan geri qalmır. "JF-17" qırıcılarının alınması Azərbaycanın Hərbi Hava Qüvvələrinin döyüş imkanlarını xeyli genişləndirəcək.

### Qarabağda Mədəniyyət Muzeyi yaradılacaq



**"Hazırda kino ilə bağlı qanun layihəsinin hazırlanması üzərində iş gedir.** Əgər həmin qanun layihəsi yaz sessiya ərzində tamamlansa, müzakirəyə çıxarılacaq". Bu barədə "Report"a Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa məlumat verib.

Onun sözlərinə görə, mədəniyyət abidələrinin qorunması, Qarabağda Mədəniyyət Muzeyinin yaradılması, Şuşanın statusu ilə bağlı məsələlərdə mədəniyyət aspektinin qabardılması istiqamətində qanunvericilikdə dəyişikliklər ediləcək: "Yaz sessiyası bu məsələlərə baxılacaq".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC 1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Prezidentdən növbəti xəbərdarlıq

**Yanvarın 18-də Sumqayıt Kimya Sənaye Parkında "Azərsulfat" MMC-nin sulfat turşusu istehsalı, "Glassica" QSC-nin şüşə tara məhsullarının istehsalı zavodlarının təməli qoyulub, "Azerfloat" QSC-nin termoformasiya metodu ilə vərəqə şüşə istehsalı müəssisəsinin açılışı olub. Hafta.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirlərdə iştirak edib.**



"Azərsulfat" MMC-nin "sulfat turşusu istehsalı" layihəsi çərçivəsində tikiləcək zavodun investisiya dəyəri 6 milyon ABŞ dollarıdır. Zavodda ildə 20 min ton məhsul istehsalı nəzərdə tutulur. Bu ilin sonunda fəaliyyətə başlayacaq zavodda 30-dan çox iş yeri yaradılacaq. Dövlətimizin başçısı müəssisənin təməlini qoydu. Bildirildi ki, təkcə son 3 ildə Azərbaycana hər il 5-10 min ton sulfat turşusu idxal edilir və bu zavodun fəaliyyətə başlaması ilə idxal yerli istehsalla əvəz olunacaq. Məhsulların növbəti mərhələlərdə Gürcüstana və Rusiyaya ixrac edilməsi də planlaşdırılır.

■ **Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri də "Glassica" Qapalı Səhmdar Cəmiyyətidir. Cəmiyyət burada şüşə tara məhsullarının (butulka) istehsalı zavodunu inşa edəcək.** Müəssisənin məhsulları əsasən qida sektorunda qablaşdırmada istifadə olunacaq. İnvestisiya dəyəri 12 milyon ABŞ dolları olan müəssisədə 160 nəfər daimi işlə təmin ediləcək. Prezident İlham Əliyev zavodun təməlini qoydu.

Dövlətimizin başçısına məlumat verildi ki, Azərbaycanda daxili bazarın rəngli butulkaya olan tələbatı təqribən 45-50 milyon ədəd arasında dəyişir. Zavodda 60-90 milyon ədəd müxtəlif çeşidli rəngli şüşə tara məhsullarının istehsalı nəzərdə tutulur. Yəni, daxili bazarın tələbatı tam ödənilir, nəticədə ixrac perspektivi yaranır.

"Azərfloat" QSC-nin vərəqə şüşə istehsalı zavodu Azərbaycanda termoformalaşdırılmış şüşə hazırlanması üzrə ilk müəssisədir. Ümumi investisiya dəyəri 100 milyon avro olan zavodda ildə 80 min ton müxtəlif çeşiddə vərəqə şüşə istehsal ediləcək. Müəssisənin layihələndirilməsi və qabaqcıl texnologiyalarla təchiz olunması Almaniyanın dünyada şüşəemal sahəsində 135 illik təcrübəyə malik "HORN Glass Industries AG" şirkəti tərəfindən təmin edilib. Müəssisədə İtaliya, Finlandiya və Çin texnologiyalarından da istifadə olunur. Dövlətimizin başçısı zavodu işə saldı. Məlumat verildi ki, hazırda ölkədə vərəqə şüşələrə olan tələbat tamamilə idxal məhsulları hesabına təmin edilir. Vərəqə şüşə şəffaf və ya rəngli, eyni zamanda, kiçik və böyük ölçülərdə istehsal olunur. Hazırda dünyada vərəqə şüşənin 90 faizdən çox hissəsi - yüksək keyfiyyətli rəngli və rəngsiz (şəffaf), optik baxımdan təmiz şüşə tamamilə termoformalaşdırma texnologiyası ilə istehsal edilir. Artıq Azərbaycanda da bu sahədə ən müasir texnologiya tətbiq olunur.

■ **Sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verdi.**

***- Cənab Prezident, biz, ilk növbədə, yəqin ki, bu təməlqoymaları, eyni zamanda, istehsala başlamanı hərbi-diplomatik qələbələrimizdən sonra həm də iqtisadi sahədə uğurların davamı və Sizin prioritet kimi müəyyənləşdirdiyiniz sənayeləşmə siyasətinin növbəti təzahürü kimi qiymətləndirməliyik. Təməlini qoyduğunuz və eyni zamanda, hazırda məhsul istehsalına başlayan müəssisələrin növbəti mərhələlərdə qeyri-neft sənayesinin şaxələndirilməsi fonunda töhfəsini necə qiymətləndirirsiniz?***

- Bu müəssisələrin yaradılmasının və təməlinin qoyulmasının çox böyük əhəmiyyəti var, ilk növbədə, Sumqayıt şəhərinin inkişafı üçün. Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir. Eyni zamanda, son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti var. Çünki əvvəllər Sumqayıt ekoloji fəlakət zonası idi. Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək, ilk növbədə, insanların sağlamlığını nəzərə almışıq. Bildiyiniz kimi sovet vaxtında burada tikilmiş çoxsaylı müəssisələr istismar müddətini başa vurmuşdu, sıradan çıxmışdı və ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi. O müəssisələr söküldü və mənim göstərişimlə 10 il bundan əvvəl onların ərazisində 500 hektar sahəni əhatə edən Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Son illər ərzində bu sənaye parkı o qədər böyüdü və genişləndi ki, artıq göstəriş verildi, əlavə torpaq sahələri tapılsın və bu istiqamətdə işlər aparılır.

Bu müəssisənin təməlini 2017-ci ildə mən özüm şəxsən qoymuşam və şadam ki, artıq 100 milyon avro dəyərində bu böyük layihə həyata keçdi və bizi vərəqə şüşələrin idxalından azad edəcək. Bu, o deməkdir ki, valyuta qalacaq ölkəmizdə, yerli istehsal canlanacaq, iş yeri yaradılacaq və iqtisadiyyatımızın şaxələndirilməsi təmin ediləcək. Biz hətta dünya bazarlarında neftin qiymətinin aşağı səviyyədə olduğu bir dövrdə də öz dayanıqlılığımızı qoruya bilmişik. Mən bu yaxınlarda ilin yekunları ilə bağlı keçirdiyim müşavirədə qeyd etdim ki, bizim valyuta ehtiyatlarımız azalmayıb, hətta az da olsa, artıb. Nəyə görə? Çünki qeyri-neft sektoru uğurla inkişaf edib. Bütün dünya ölkələrində 2020-ci il iqtisadi tənəzzül ili olmuşdur, bizdə də, həmçinin. Amma bizdə tənəzzül cəmi 4,3 faiz olmuşdur. İnkişaf etmiş bəzi ölkələrdə bu, daha böyük rəqəmlərlə ölçülür. Amma bizdə qeyri-neft sənaye sahəsində artım 12,5 faiz olub, məhz bu kimi müəssisələrin hesabına. Sənaye, kənd təsərrüfatı, qeyri-neft sektoru, ixrac imkanları, idxaldan asılılığın azaldılması - bütün bu amillər bugünkü yeni reallığı yaradıb.

Beləliklə, ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin ediləcək. İlin əvvəlində məhz buraya gəlməyim təsadüfi deyil. Yəni, 2021-ci il də artıq qələbələrlə başlayır. Əlbəttə ki, mənim bölgələrə ilk səfərim, hamımız üçün doğma Şuşa şəhərinə olub. Bu da mətbuatda kifayət qədər işıqlandırılıb. İkinci səfərim isə Sumqayıtadır. Son 17 il ərzində mən Sumqayıtda bəlkə də 30 dəfə olmuşam. Hər dəfə burada olanda, həm sənaye müəssisələrinin işə düşməsi, eyni zamanda, şəhərsalma ilə bağlı görülən işlər, insanları narahat edən problemlərin həlli daim diqqət mərkəzində olub. Bu gün Sumqayıt həm memarlıq, həm də ekoloji baxımdan gözəl şəhərdir, havası təmizdir, gözəl bulvarı var və iş yerləri də yaradılır. Bax, bu 3 müəssisədə 350-dən çox iş yeri yaradılıb və burada işləyənlərin əksəriyyəti yerli sakinlər olacaq.

**Biz bu müəssisələri yaratmaqla həm bu günün məsələlərini həll edirik, həm də gələcək məsələləri. Nə üçün Azərbaycanda bizə lazım olan bütün istehsalat sahələri yaradılmasın? Sadəcə olaraq, həm xarici, həm də yerli investorların ölkəmizə gələcəyinə inamı olmalıdır, bu da həmişə olub, bu gün də var. Gözəl investisiya iqlimi olmalıdır.** Dünya Bankının "Doing Business" hesabatında biz 10 ən islahatçı ölkə sırasındayıq və dünya miqyasında 28-ci yerdəyik. Sabitlik olmalıdır, xalq-iqtidar birliyi olmalıdır, əmin-amanlıq olmalıdır, təhlükəsizlik olmalıdır və buna da biz nail olmuşuq. Artıq müharibə də başa çatıb, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qalıb. Ona görə mən tam əminəm ki, bugünkü Azərbaycana investisiyalar, ilk növbədə, qeyri-neft sektoruna daha böyük həcmdə gələcəkdir. Çünki əgər əvvəlki illərdə - müharibə hələ həll olunmamış bir vəziyyətdə biz bu investisiyaları cəlb edə bilmişiksə, bu gün bunları cəlb etmək daha asan olacaq.

Bir də ki, ölkəmizdə islahatlar - kadr islahatları, struktur islahatları, iqtisadi islahatlar, sosial sahədə islahatlar aparılır. Bu gün dünyada Azərbaycan kimi inkişaf üçün bir çox amilləri özündə ehtiva edən ölkələrin sayı azdır. Siyasi sabitlik, xalq-iqtidar birliyi, əmin-amanlıq, coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, - bu, çox önəmlidir, - ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər, heç bir ölkə ilə problemin olmaması. İndi mən ümid edirəm, müəyyən müddətdən sonra Ermənistan da deyəcək ki, onların da bizimlə heç bir problemi yoxdur. Çünki əsas məsələ bunda idi, onlar bizim torpağımızı işğal etmişdilər. Onlar bizə qarşı soyqırımı törədiblər. Onlar bizim şəhərlərimizi yerlə bir ediblər. Biz, sadəcə olaraq, özümüzü müdafiə etmişik, lazımi səviyyədə müdafiə etmişik və işğalçıları torpaqlardan qovmuşuq.

Ona görə ölkəmizin inkişafı üçün yeni bir dövr başlayıb. Bütün bu amillər ola-ola bu gün biz azad edilmiş torpaqlara qayıdaraq, o torpaqların potensialından istifadə edəcəyik. Orada çox böyük potensial - bərpaolunan enerji növləri, qiymətli təbii sərvətlər, qızıl yataqları, mis yataqları, çaylar, su anbarları, kənd təsərrüfatı üçün münbit torpaq, turizm imkanları var. Yəni, bu bölgələr bir çoxlarının fikrinə görə, növbəti inkişafımızın aparıcı qüvvəsinə çevriləcək. Mən də əlbəttə ki, bu fikri bölüşürəm. Sadəcə olaraq, azad edilmiş torpaqlarda hər şey planlı şəkildə aparılmalıdır, düzgün aparılmalıdır. Azad edilmiş torpaqların idarə edilməsi ilə bağlı məndə fikirlər var. Bu fikirlər yaxın zamanlarda həyata keçiriləcək. O bölgələrdə mövcud olan vəziyyətə uyğun müasir idarəetmə sistemi qurulmalıdır ki, orada hər şey planlı şəkildə təmin edilsin - şəhərsalma, dövlət orqanlarının funksiyaları. Çünki bilirsiniz, əfsuslar olsun ki, ölkəmizin müxtəlif yerlərində bəzi xoşagəlməz hallar məhz nəzarətsizlik ucbatından baş verir. Bəzi yerlərdə torpaqlar zəbt edilir, insanların əlindən alınır, qeyri-ədalətli şəkildə bölünür. O cümlədən su resursları qeyri-ədalətli şəkildə bölünür, bəzilərinə su çatır, bəzilərinə su çatmır. Bütün bunlar bizə yaraşmır. Biz özümüzü bu qüsurlardan təmizləməliyik və təmizləyirik. Təmizləmə prosesi gedir və gedəcək. Hər kəs bunu bilsin. Heç kim hesab etməsin ki, onun hansısa xüsusi imtiyazı var. Yaxud da ki, kimsə özünü toxunulmaz hesab etməsin. Azad edilmiş torpaqlarda hər şey demək olar ki, dağıdılıb. Ona görə biz elə bir inkişaf modeli qurmalıyıq ki, ondan sonra biz onu bütün başqa torpaqlara da, necə deyərlər, transfer edə bilək, mövcud qüsurlar aradan qalxsın və ölkəmizin uğurlu inkişafı təmin edilsin.

Mənim, əlbəttə ki, əsas işim Qarabağ məsələsinin həlli və sentyabr ayından başlayaraq gedən müharibəyə Ali Baş Komandan kimi rəhbərlik etməyim idi. Bu gün də mənim fəaliyyətimdə o bölgələrin - Qarabağ bölgəsinin bərpası xüsusi yer tutur. Bu, təsadüfi deyil, bu, təbiidir. Ancaq, eyni zamanda, mən ənənəvi iş fəaliyyətimə də həmişə diqqət yetirmişəm. Sumqayıta gəlməyim onu bir daha göstərir.

Müharibə başa çatdı, müzəffər Ordumuz müharibədə qələbə çaldı, düşməni məğlub etdi. Azad olunmuş torpaqların bərpası üçün əlimizdən gələni edəcəyik. Hər gün mənim işimin əsas hissəsi buna həsr olunur. Ancaq digər ərazilərin inkişafı da heç vaxt yaddan çıxmayacaq, Azərbaycan xalqı əmin ola bilər. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, daha güclü Azərbaycan quracağıq.

***- Cənab Prezident, icazənizlə Müzəffər Ali Baş Komandanımıza Qələbəyə görə öz adımızdan təşəkkür edək. Siz demisiniz ki, Qarabağ cənnətə dönəcək. Buna heç bir şübhəmiz yoxdur, təşəkkür edirik.***

- **Prezident İlham Əliyev:** Sağ olun.

Qeyd edək ki, Azərbaycanın ilk, Cənubi Qafqazın ən böyük sənaye parkı - Sumqayıt Kimya Sənaye Parkında artıq qeydiyyata alınmış 24 rezidentdən 15-i istehsal fəaliyyətinə başlayıb. Sənaye parkında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika davam edir. 2020-ci ildə parkda 1,1 milyard manatlıq məhsul istehsal edilib ki, bu da əvvəlki illə müqayisədə 37 faiz çoxdur. İxrac isə 2019-cu illə (276 milyon manat) müqayisədə 18 faiz artaraq 2020-ci ildə 336 milyon manat təşkil edib.

Beləliklə, Sumqayıt Kimya Sənaye Parkında təməli qoyulan və açılışı edilən müəssisələrin timsalında əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin sənayeləşmə siyasətinə uyğun olaraq, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər davam etdirilir.

## Kimsə özünü toxunulmaz hesab etməsin



*"Digər ərazilərin inkişafı da heç vaxt yaddan çıxmayacaq, Azərbaycan xalqı əmin ola bilər.*

*"Biz elə bir inkişaf modeli qurmalıyıq ki, ondan sonra biz onu bütün başqa torpaqlara da, necə deyərlər, transfer edə bilək.*



# ABŞ-da "güclüsən, haqlısan" prinsipi hökm sürür

***Dünyada Amerika Birləşmiş Ştatlarında prezident seçkilərindən sonra yaşananlar birmənalı qarşılanmır. Donald Trampa qarşı iki dəfə impiçment elan olunması, ABŞ dövlət başçısına sosial şəbəkələr tərəfindən tətbiq edilən qadağalar, yanvarın 6-da Konqresə hücum nəticəsində 5 nəfərin həlak olması vəs. Bu gün gündəmin əsas müzakirə olunan mövzuları sırasındadır. Bu və ya digər məqamlarla bağlı "Həftə içi"nə müsahibə verən millət vəkili Elman Nəsirov ABŞ demokratiyasının durumu ilə bağlı maraqlı nüanslara toxunub.***

***- Elman müəllim, Donald Trampın seçki saxtakarlığı ilə bağlı irəli sürdüyü iddia və bunun fonunda ABŞ-da yaşanan gərginliklər nədən xəbər verir?***

- Amerika Birləşmiş Ştatlarında noyabr ayında keçirilən prezident seçkilərindən sonra yaşanan hadisələr bir sıra nəticələrə gəlməyə əsas verdi. Ən birinci nəticə onunla bağlı oldu ki, ABŞ-ın dünyanın ən demokratik ölkəsi olması ilə bağlı illüziyalar tamamilə puç oldu. Məlum oldu ki, Birləşmiş Ştatlarda demokratiyanın ən mühüm elementləri olan seçki sistemi köhnəlib və 21-ci əsrin reallıqlarında tamamilə qeyri-funksionaldır.

Təsəvvür edin ki, Birləşmiş Ştatlar dünyada ən çox söz, mətbuat azadlığı və sərbəst toplaşma azadlığının ən ciddi müdafiəçisi kimi çıxış edir. Bu seçkilər onu göstərdi ki, ölkənin özündə vəziyyət son dərəcədə kritikdir. İlk baxışda Birləşmiş Ştatlarda "Xalq prezidenti seçir" kimi fikirlər səslənsə də, reallıqda elektorat prezidenti seçəcək insanları seçir. Və orada son dərəcə ədalətsiz bir prinsip var: bütün səslər qalibə verilir. Demək, milyonlarla seçicinin bütün hüquqları pozulur. Tutaq ki, insanlar respublikaçılara səs versələr də, namizədləri uduzduğuna görə onların bütün səsləri alınır. Deyilir ki, sizin o səslərin hamısı Demokratların hesabına yazılacaq.

Beləliklə, "səslər qalibə veriləcək" prinsipi işə düşür. Görün, nə qədər seçicinin hüquqlarının pozulması ilə bağlı ədalətsizlik olur. Ən qəribəsi də budur ki, bu dəfə pandemiyanı əsas götürüb daha çox poçtla səsvermələr keçirildi. Tramp tərəfdarları poçt vasitəsi ilə keçirilən səsvermələrdə çoxsaylı qüsurlar, səhvlər, hüquq pozuntilarını üzə çıxardı. Belə olduğu halda, Tramp tərəfdarlarını öz səslərini ucaltmağa, öz etirazlarını ifadə etməyə çağırdı. Nəticədə yanvarın 6-da son 200 il tarixində Konqresə məlum hucum reallaşdı.

Bu hücum nəticəsində də 5 nəfər həlak oldu. Onların arasında bir nəfər qadın da var idi.



**Elman Nəsirov,**
Milli Məclisin deputatı

***- ABŞ daxilində bu proseslərə hüquqi qiymət veriləcəyi açıqlanmaqla üzərindən sükutla keçməyə çalışır, ölkənin siyasi sistemi ilə bağlı tənqidlərə maksimum yer verməməyə çalışırlar. Necə hesab edirsiniz, əgər belə bir hal digər ölkələrdə baş vermiş olsaydı, ABŞ buna qarşı hansı münasibəti sərgiləmiş olardı?***

- Burada bir neçə paralel aparmaq olar. İyul ayının 14-də Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində hərbi təxribatına cavab olaraq, Azərbaycan cəmiyyətində böyük bir həyəcanlanma oldu. Xalqımızın mütləq əksəriyyəti Ali Baş Komandanı, Ordumuzu müdafiə istiqamətində, Ermənistanın hərbi təxribatına etiraz ruhunda bir yürüş keçirtdi. Təəssüf ki, siyasi dairələr həmin yürüşün mahiyyətini dəyişmək istədilər və Parlamentin boş binasına hücum da təşkil etdilər. Nəticədə, biz okeanın o tayından, eyni zamanda bir sıra Qərb paytaxtlarından bu hadisələrə qeyri-obyektiv qiymətləndirmələrə şahidlik elədik. Həmin parlamentə hücum edən şəxslərin demokratiyanın müdafiəçiləri olduğu, onların saxlanılmasının qeyri-qanuni olduğu, onlara qarşı cinayət işinin açılmasının Azərbaycanda sərbəst toplaşma, söz, mətbuat azadlığının boğulması kimi təqdimatını gördük. Birləşmiş Ştatlarda Parlamentə olan müdaxiləyə isə demokratiyanın təntənəsi kimi qiymət vermək istəyirlər. Təsəvvür edin ki, əgər Azərbaycan parlamenti içərisində kimsə güllələnsəydi, qan tökülsəydi, bütün dünyada, başda ABŞ olmaqla, hansı rezonansı yaradardılar. Azərbaycan hökumətini, iqtidarını antidemokratiyadan tutmuş, daha nələrdə ittiham eləməzdilər. Halbu ki, Azərbaycan polisi öz missiyasını şərəflə yerinə yetirdi, təhlükəsizliyi, asayişi təmin etdi. Qarışıqlıq salmayan insanlara münasibətdə də tam qanun çərçivəsində davranış ortaya qoydu. ABŞ-da isə parlamentə müdaxilə edən şəxslər güllələnirlər.



Hesab edirəm ki, bu hadisələr Amerikanın dünyada demokratiyanın bayraqdarı olması ilə bağlı o mövqeni alt-üst elədi. Bu fövqəl dövlətin imicinə çox ciddi zərbə dəymiş oldu. Birləşmiş Ştatlar heç kimə demokratiya dərsi keçə bilməz.

***- Donalt Trampın tvitter, digər sosial şəbəkə hesablarının dondurulması nə dərəcədə düzgün və ABŞ demokratiyası dəyərlərinə uyğundur?***

- ABŞ Dövlət Departamenti, Konqres tərəfindən maliyyələşdirilən bir sıra QHT-lər ayrı-ayrı ölkələri ittiham edərkən, ilk növbədə söz, mətbuat azadlığını ön plana çəkir, sosial şəbəkələrdə azadlığın qorunub saxlanması, azad internet və sair bu kimi tələblərlə çıxış edirlər. Amma bu gün şahid oluruq ki, Birləşmiş Ştatların prezidentinə münasibətdə hətta onun sosial şəbəkələrdə iştirakına qadağalar qoyulub. Bu onu göstərir ki, qalib gəlmiş tərəf və eyni zamanda bu ölkənin məhkəmə sistemi, hüquq-mühafizə orqanları çox gözəl bilirlər ki, Birləşmiş Ştatlarda seçkidə uduzan prezidenti vəzifəsindən gedənə qədər "axsıyan ördək" adlandırırlar. İndi yanvarın 20-də gedəcək Trampa "axsıyan ördək "timsalında təzyiqlər var.

> ***"Birləşmiş Ştatların iki-partiyalı seçki sistemi çox cidd böhran keçirməkdədir***

Orda güclüsən, haqlısan prinsipi hökm sürür. İstisna deyil ki, 20 yanvardan sonra yeni seçilmiş prezident Trampa qarşı açılmış cinayət işi məsələlərini intensivləşdirsin. İki ildən sonra Birləşmiş Ştatlarda parlamentə aralıq seçkilər olacaq.

Respublikaçıların seçkilərdə qalib gələcəyi istisna edilmir. Məsələ də ondan ibarətdir ki, Bayden çox yaşlıdır, 2 ildən sonra 80 yaşı olacaq. Demokratların namizəd boşluğu yaranacaq. Və növbəti 4 ildən sonra keçiləcək prezident seçkilərində artıq 78 yaşında olacaq Tramp yenidən namizədliyini irəli sürə bilər.

***- Elman müəllim, Trampın növbəti dəfə seçkilərdə iştirakının qarşısını almaq üçün ona 2 dəfə impiçment qoyulub. Bu, nə ilə bağlıdır və nə dərəcədə demokratiya, beynəlxalq hüquqa uyğundur?***

- Hesab edirəm ki, bu, tamamilə absurd məsələdir. İmpiçment məsələsi növbəti 4 ildən sonrakı prezident seçkilərində və iki ildən sonra keçiriləcək aralıq seçkilərində respublikaçıların mövqeyini zəiflətmək, yaxud Trampın yenidən qayıdışının qarşısını almaq üçün ortaya atılıb. Belə müzakirələr aparılır ki, əgər prezident çeçkilərinə 6 ay qalsaydı, impiçment məsələsinin əhəmiyyəti olardı. Əgər bir neçə gündən sonra Tramp öz vəzifəsindən gedirsə, impiçment məsələsi öz əhəmiyyətini itirir. Hər halda onu unutmayaq ki, Birləşmiş Ştatların ikipartiyalı seçki sistemi çox cidd böhran keçirməkdədir. Əhalinin böyük bir hissəsi nə demokratlara, nə də respublikaçılara inanmaq istəmir.

***- Bu gün dünya dövlətləri ABŞ-da baş verənlərə görə ona hər hansı təzyiq göstərə bilirmi?***

- Trampın yeritdiyi xarici siyasət bir çox müttəfiqlərini, xüsusilə NATO, Avropa İttifaqı üzrə dövlətləri narazı salmışdı. Elə ona görə tələm-tələsik Baydenin seçilməsini tanıdılar. Ayrı-ayrı hallarda ABŞ-da baş verən insidentlərə münasibət bildirsələr də, anti-demokratik məsələləri təhlil edib ciddi nəticələrə gəlmək istəmədilər. Təsəvvür edin ki, 2003-cü il mart ayının 19-dan 20-nə keçən gecə bala Corc Buş İraqı bombaladı. Əsas gətirildi ki, İraqda kütləvi qırğın silahı var, beynəlxalq terorizmi himayə edir və sair. Bağdad alındıqdan 2-3 həftədən sonra ABŞ prezidenti etiraf etdi ki, sən demə Səddam Hüseynin nə nüvə silahı var imiş, nə də beynəlxalq terrorizmlə himayə etmirmiş. Yaxşı, bu müdaxiləyə görə milyonlarla insan həlak olub.

Buna görə Buş hər hansı məsuliyyət daşıdımı, hər hansı beynəlxalq məhkəmə qarşısında dayandımı, xeyr. Analoji hadisəni başqa bir dövlət etsəydi, yəqin ki, onu iqnor vəziyətinə salıb rəhbərinə qarşı da beynəlxalq tribunal açardılar.

Təəssüf ki, bu gün beynəlxalq hüquq çox ağır dövrünü yaşayır. Enişteynin hələ ötən əsrin 50-ci illərində dediyi bir fikir var: "Beynəlxalq hüquq yalnız beynəlxalq hüquq və sənədlər külliyyatında vardır". Faktiki olaraq indiki vəziyyət belədir.

*✍ Tahirə Qafarlı*

# Prezidentin bu səfəri Şuşa üzərində öz hüququnu dünyaya göstərməsi idi

**"Cənab Prezidentin Şuşaya gəlişi Azərbaycanın işğaldan azad olunan torpaqları, konkret Şuşa üzərində öz hüququnu dünyaya göstərməsi idi". Hafta.az xəbər verir ki, bunu Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Onun fikrincə, cənab Prezidentin hər sözündə tarixi nəticə, dünyaya bir mesaj var:**

"Qalib Azərbaycan torpağının sahibi kimi Ali Baş Komandanın Şuşada Azərbaycan tarixi ilə bağlı söylədiyi fikirlərin böyük əhəmiyyəti var. O, xüsusilə Azərbaycan xanlıqları, Şuşanın qədim Azərbaycan şəhəri, Ulu öndər Heydər Əliyevin bu şəhər üçün böyük işlər görməsindən bəhs etdi. Bildirdi ki, əgər işğal olmasaydı, bu gün Şuşa dünyanın ən diqqət çəkən şəhərlərindən biri olacaqdı. Prezident dedi ki, yayılan görüntülər elə təəssürat yaradır ki, Şuşa haradasa, ötən səsrin 70-80-ci illərində qalıb. Ermənistan nəinki Azərbaycanın torpaqlarını işğal etdi. Eyni zamanda əraziləri inkişafdan saxladı". Deputat Şuşada Prezidentin çox mühüm mesajlar verdiyini önə çəkdi. Onun sözlərinə görə, Prezidentin Azərbaycan gəncliyi ilə fəxr duyması, gənclərimizin vətənpərvər olmasını vurğulaması dövlət rəhbərinin gənclərə verdiyi yüksək qiymətdir. A.Mirzəzadə bildirib ki, cənab Prezidentin Şuşada olarkən məscidlərlə yanaşı, kilsəni ziyarət etməsi Azərbaycanın multikultural dövlət olduğunu, dinlərin fəaliyyətinə şərait yaradıldığını bir daha sübut etdi. Onun sözlərinə görə, Cıdır düzündə Prezidentin çay içməsi rəmzi xarakter daşıyır. O göstərdi ki, Azərbaycan xalqı öz torpağının, tarixinin, mədəniyyətinin sahibidir. Heç kəs bu məsələdə ona mane ola bilməz: "Şuşanın bərpası və quruculuğu ilə bağlı çox möhtəşəm planlar hazırlanır. Ona görə də hər səfərimiz zamanı Şuşanı tanımayacağıq. Şuşa bizə daha gözəl və əzəmətli formada özünü təqdim edəcək".



**Aydın Mirzəzadə,**
Milli Məclisin deputatı

*✍ Tahirə*

# Prezidentə yazırlar



**Birsel Firiddin, Bursa:**

- Möhtərəm cənab Prezident,

Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi, Vətən müharibəsinin Qələbə ilə tamamlanmasına görə öncə Sizi, Azərbaycan Ordusunu, eləcə də, müharibədə dik duruşundan dolayı Azərbaycan xalqını bu tarixi Zəfər münasibətilə təbrik edirəm.

"Bir millət, iki dövlət" şüarı Azərbaycan dövləti ilə Türkiyə dövlətinin birlik və bərabərliyinin göstəricisidir.

Qarabağ Zəfəri ilə Azərbaycan Qafqazların tarixində yeni bir səhifə açmışdır.

Zəfəriniz daim var olsun, haqq işinizdə Uca Allah daim Sizin yar və yardımçınız olsun.

---

**Elvin Məmmədov, Sumqayıt:**

- Hörmətli Prezidentim, cənab İlham Əliyev,

Ölkəmizin inkişafı uğrunda apardığınız mübarizə, hamıya əvəzsiz dəstəyiniz danılmazdır və xalqımızın dəyərbilən vətəndaşları bunu çox yaxşı bilirlər.

Cənab Prezident, Sizin komandanlığınız altında şanlı Ordumuzun apardığı əzmkar döyüşlər xalq olaraq hamımızı qürurlandırdı. Mənfur erməni işğalçılarının torpaqlarımızdan qovulmasına və ərazi bütövlüyümüzün təmin edilməsinə görə çox sevinirik. Bütün Beyləqan əhalisi adından və çalışdığım "Azərtexnolayn" MMC-nin kollektivi adından Sizə minnətdarlığımı bildirirəm və gələcək işlərinizdə Sizə cansağlığı, uzun ömür diləyirəm.

**Mən fəxr edirəm ki, Azərbaycanlıyam! Qarabağ Azərbaycandır!**

---

**Sabir Mirzəyev, Laçın:**

- Hörmətli cənab Prezident,

Biz Sizinlə fəxr edirik, ona görə ki, Sizin komandanlığınız altında Milli Ordumuz qəhrəmanlıqla 30 il düşmən tapdağı altında olan torpaqlarımızı işğaldan azad etdi. Biz, Laçın rayonunun Quşçu kənd sakinləri çox sevinirik. Ona görə ki, biz artıq məcburi köçkün deyilik, tezliklə doğma torpaqlarımıza qovuşacağımız günü səbirsizliklə gözləyirik. Siz cəsarətli iradənizlə, qətiyyətli mövqeyinizlə Azərbaycan xalqının birliyini dünyaya bir daha sübut etdiniz.

Biz laçınlılar yaxın vaxtlarda öz el-obamıza qayıdıb, Sizin rəhbərliyiniz altında yurd yerlərimizi yenidən qurub-yaratmaq, abadlaşdırmaq arzusundayıq. Bilin ki, Sizə həmişə minnətdarıq.

**Eşq olsun Ali Baş Komandana! Yaşasın Azərbaycan!**
**Qarabağ Azərbaycandır!**

---

**Tacir Aslanov, Ağcabədi:**

- Hörmətli cənab Prezident,

Sizə şəxsən öz səmimi minnətdarlığımı bildirmək istərdim. Allah Sizin kimi igid, cəsur, xalqını sevən Prezidenti başımızın üstündən əskik etməsin. Bu gün 10 milyon insanın ürəyi Sizinlə döyünür, Müzəffər Ali Baş Komandan. Allah Sizi bizə çox görməsin. Xalqımız Sizinlədir. Azərbaycanın yenilməz sərkərdəsi cənab İlham Əliyevə eşq olsun!

Mən bir laçınlı olaraq, ürəyində, damarlarında azərbaycanlı qanı axan Azərbaycan vətəndaşı kimi Sizinlə qürur duyuram. Fəxr edirəm ki, biz azərbaycanlıların belə məğlubedilməz, yenilməz Prezidenti var. Çünki Siz bizə Laçınımızı bəxş etdiniz, 30 il həsrətində olduğumuz torpaqlarımızı geri qaytardınız. Şəhidlərimizin, general Polad Həşimovun qanı yerdə qalmadı. Allah bütün şəhidlərimizə rəhmət etsin!

Azərbaycanı bütün dünyada qüdrətli və güclü bir dövlət kimi tanıtdığınız üçün Sizə, cənab Prezident, bir daha təşəkkür edirəm. Sevincimizin həddi-hüdudu yoxdur.

**Yaşasın Prezidentimiz İlham Əliyev! Var olsun Azərbaycan!**

---

**Gülşən Ağayeva, Bakı:**

- Əziz Prezidentim,

Mənim ən böyük arzum Sizinlə görüşməkdir.

Bütün dünya üçün 2020-ci il çox çətin bir il oldu. Bəşəriyyəti cənginə almış koronavirus xəstəliyi bizdən də yan keçmədi. İndiyədək bütün dünyada bu xəstəliklə mübarizə aparılır. Bütün bunlara baxmayaraq, biz bilməzdik ki, 2020-ci ilin sonu biz azərbaycanlılar dünyanın ən xoşbəxt insanları olacağıq. Sizin sayənizdə biz bu ili böyük zəfərlə bitirdik. Siz mənim üçün adınızı "Əsrin Fatehi" kimi qızıl hərflərlə tarixə yazdıran Azərbaycan igidisiniz.

Bu gün bizim üçrəngli bayrağımız düşmən işğalından azad edilmiş torpaqlarımızda dalğalanır. Bundan böyük xoşbəxtlik nə ola bilər?! Biz hər zaman Sizinlə fəxr edəcəyik. Dünyaya sübut etdiniz ki, xalqını sevən Prezident belə olar. Allah Sizə uzun ömür versin! Həmişə var olun, cənab Prezident!

---

**Abas Abaszadə, Sabirabad:**

- Hörmətli cənab Prezident,

Sizin dövlətimizin inkişafı və xalqımızın rifahı naminə yorulmaz fəaliyyətinizi hər zaman dəstəkləyirik. 2020-ci ildə əldə etdiyiniz uğurlar bir daha Sizin gücünüzü göstərdi. Uzun illərdir işğal altında olan doğma torpaqlarımızın azad edilməsi isə Sizin ən böyük uğurlarınızdan biri oldu. Bu zəfəriniz heç bir zaman unudulmayacaq.

Cənab Prezident, biz Sizinlə fəxr edir, qürur duyuruq. Mən bir gənc olaraq Sizi hər zaman dəstəkləyirəm. Allah Sizi və ailənizi qorusun!

---

**Mehriban Əhmədova, Gəncə:**

- Cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Vətən müharibəsinin 44 günə yekunlaşması bizim illərlə hazırlaşdığımız müharibənin uğurlu nəticəsidir. Təbii ki, bu nəticəni Ordumuz öz gücü, iradəsi və qorxmazlığı ilə qazandı. Mən fəxr edirəm ki, mənim oğlum da Qələbəmizə öz töhfəsini vermiş həmin qəhrəmanlardan biri olmuşdur. O, hər zaman Vətənini düşünürdü, dönə-dönə təkrarlayırdı ki, Qarabağı öz gücümüzə alacağıq. Elə də oldu. Mən inanıram ki, bütün əsgərlərimiz elə mənim oğlum kimi düşündükləri üçün biz müharibəni uğurla yekunlaşdırdıq. Övladımı itirdim, ancaq ailəm, xalqımız dünyanın ən gözəl hədiyyəsini qazandı. İlk olaraq, itirilmiş torpaqlarını, ikincisi isə ömür boyu davam edəcək qürur hissini. Bir də ona görə sevinirəm ki, xalqın və dövlətin dəstəyini, qayğısını hiss edirik. Bu, bizi daha da ruhlandırır. Buna görə cənab Prezidentimiz, Sizə dərin minnətdarlığımı bildirirəm. Var olasınız!

# Təhsilin ayrı-ayrı pillələri üzrə ənənəvi tədris başlaya bilər

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
MEDİA
Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

***Məlum olduğu kimi, koronavirus pandemiyası bütün sahələrlə yanaşı, təhsil sektorunun da fəaliyyətini iflic halına salıb. Düzdür, pandemiya dövründə dərs mövzuları distant formada, eləcə də teledərslər şəklində şagirdlərə izah edilir. Müşahidələr onu göstərir ki, distant təhsildə əldə olunan nəticələr ənənəvi təhsillə müqayisədə çox-çox aşağıdır. Təhsil Nazirliyi ümumtəhsil müəssisələrinin şagirdləri üçün təşkil olunan distant dərslərlə bağlı mövcud problemləri açıqlayıb. Nazirlikdən Trend-in sorğusuna cavab olaraq bildirilib ki, dərslərin onlayn qaydada tədrisində şagirdlərin iştirak faizi şəhərlərlə müqayisədə kənd rayonlarında nisbətən aşağıdır:***

”Səbəb olaraq bəzi ailələrin internetə çıxış imkanlarının məhdudluğunu və dərslərə qoşulmaq üçün müvafiq cihazın olmamasını qeyd edə bilərik. Onlayn dərslərə qoşula bilməyən şagirdlər üçün televiziya kanallarında tədris proqramına uyğun olaraq teledərslərin yayımlanması təmin olunur”.

## Yeri gəlmişkən

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) tərəfindən pandemiya dövründə tədris və təlim-tərbiyə prosesinin təşkili vəziyyətini müşahidə etmək məqsədilə “Virtual məktəbdə bir gün” layihəsinə start verilib.**

İdarədən hafta.az-a verilən məlumata görə, layihə çərçivəsində BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində təşkil edilən distant dərslər BŞTİ rəhbərliyi və İdarənin əməkdaşları tərəfindən dinləniləcək. Sonra layihə üzrə ”Virtual məktəb” platformasında tədris və təlim-tərbiyə prosesinin təşkilinin daha da təkmilləşdirilməsi, distant təhsilə cəlbolunma səviyyəsinin təhlili istiqamətində müəllim və məktəb rəhbərlərinin iştirakı ilə müzakirələr aparılacaq. Layihə çərçivəsində paytaxtın 12 inzibati rayonu üzrə məktəb direktorlarının iştirakı ilə distant tədris prosesini izləmək üçün dərs müşahidələrinin davamlı təşkili nəzərdə tutulur.




Xatırladaq ki, Nazirlər Kabinetinin qərarına əsasən, xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2020-ci il 2 noyabr tarixindən tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkili təmin edilir. Müəyyən edilib ki, bu Qərarın qüvvədə olduğu müddətdə sanitar-epidemioloji vəziyyətlə bağlı Azərbaycan Respublikasının baş dövlət sanitariya həkiminin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin müvafiq rəyləri əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyi ayrı-ayrı inzibati ərazi vahidlərində fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin əyani formada aparılmasının bərpası və ya dayandırılması barədə qərar qəbul edə bilər.

Artıq bu həftədən etibarən Azərbaycanda mövcud epidemioloji vəziyyətlə bağlı tətbiq olunan sərt karantin rejimi müəyyən qədər yumşaldılacaq. Belə ki, yanvarın 25-dən bəzi fəaliyyət sahələrində işlər bərpa olunacaq. Bu istiqamətdə təhsil sektorunda da müəyyən açılmaların olacağı gözlənilir. Bununla bağlı, həftə ərzində təhsil naziri Emin Əmrullayevin iştirakı ilə brifinq təşkil ediləcək. Bu barədə nazirliyin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov özünün ”Facebook” hesabında paylaşdığı məlumatda bildirib. Məlumatda deyilir ki, brifinqdə qarşıdakı dövr ərzində tədrisin təşkili qaydaları, yeni hədəflər, gözləntilər barədə məlumat veriləcək, sual doğuran məsələlərə aydınlıq gətiriləcək.

■ **Mövzu ilə bağlı fikirlərini hafta.az-la bölüşən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini, təhsil eksperti Nadir İsrafilov söyləyib ki, təhsil üçün ağır keçən bir ilə yaxın müddətdə, təhsilimizin ayaq üstə saxlanılması üçün istər Təhsil Nazirliyi, istərsə də aidiyyəti qurumlar tərəfindən bütün mövcud imkanlardan istifadə olunub:** “Hər şeydən əvvəl onu qeyd edim ki, distant təhsilin təşkili və gedisatı barədə hər hansı bir fikir söyləyərkən, onu təhsilin ənənəvı forması ilə müqayisə etmək və gözlətilərimizi keyfiyyət baxımında mübahisələndirmək heç də düzgün olmazdı. Hər şeydən əvvəl ona görə ki, buna nə dərəcədə hazır olub-olmamağımızdan asılı olmayaraq, distant (məsafədən) təhsil - tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma forması kimi təhsil qanunvericiliyimizdə öz əksini tapıb. Baxmayaraq ki, təhsil müəssisələrinin nə vaxt açılacağı və tədris prosesinin hansı formada davam etdiriləcəyi artıq bu gün deyil, uzun müddətdir ki, təkcə təhsil ictimaiyyətini deyil, bütün cəmiyyət üzvlərini düşündürür. Təhsilin distant forması əsasən müəyyən səbəblər üzündən təhsilini artırmaq imkanı olmayan və yeni ixtisas almaq arzusunu həyata keçirə bilməyən potensial şəxslərə real təhsil imkanları yaratmaq funksiyasını yerinə yetirsə də, bu təhsil forması ənənəvi təhsil formalarına nisbətən öyrənənlərin müstəqilliyini, fəallığını, şüurluğunu, yaradıcılığını optimal şəkildə inkişaf etdirmək, öyrədən və öyrənən arasında əlaqəni telekommunikasiya və kompüter şəbəkələri vasitəsi ilə operativ, müntəzəm dialoq, əks əlaqə əsasında, uzaq məsafədən həyata keçirmək imkanlarına malikdir. Başqa sözlə, təhsil nazirinin də bir müddət əvvəl vurğuladığı kimi “Distant təhsil sadəcə olaraq yaranmış vəziyyətdə ən uyğun həll, çıxış yoludur” və “Təhsil nailiyyətlərini, faydalılığını qiymətləndirmək sonrakı işdir. ”Baxmayaraq ki, ənənəvi tədrisin olmaması, şagirdlərə müəllimlərə, bütövlükdə təhsil ictimaiyyətinə psixoloji cəhətdən müəyyən təsirlər göstərib, təhsil sferasında kifayət qədər problemlər yaradıb, bununla belə təhsil prosesinin davamlılığını təmin etmək məqsədilə istər Nazirlik, istərsə də aidiyyəti qurumlar tərəfindən mümkün olan bütün lazımi tədbirlər həyata keçirilib, təhsil üçün ağır keçən bir ilə yaxın müddətdə, təhsilimizin ayaq üstə saxlanılması üçün bütün mövcud imkanlardan istifadə olunub və olunmaqdadır”.

Ekspert onu da vurğulayıb ki, hamının rahat hesab etdiyi canlı öyrənmə mühitini bu gün bizdən asılı olmayan səbəblərdən təşkil edə bilmirik: “Azərbaycanda sərt karantin rejimi ilə bağlı müyyən yumşalmalar fonunda təhsillə əlaqədar hansı qərarların qəbul ediləcəyi hər kəsi maraqlandırır. Bu barədə yəqin ki, təhsil naziri Emin Əmrullayevin iştirakı ilə təşkil olunacağı planlaşdırılan brifinqdə ətraflı məlumat veriləcək, qarşıdakı dövr ərzində tədrisin təşkili qaydaları, yeni hədəflər, gözləntilər və s. barədə sual doğuran məsələlərə aydınlıq gətiriləcək, pandemiya ilə bağlı mövcud vəziyyət və zəruri ehtiyaclar nəzərə alınmaqla həlli vacib məsələlər diqqət mərkəzində olacaq. Əlbəttə, gündəlikdə duran vacib məsələlərdən biri də birinci yarım ilin yekunları, yeni şəraitə və yeni qaydalara uyğunlaşmaq baxımından həlli zəruri olan vəzifələrə yönəlik məsələdir. Hesab edirəm ki, şəraitə və situasiyaya uyğun lokal xarakterli diferensial yanaşma hələ bir müddət davam edəcək. Nazirin də qeyd etdiyi kimi hamının rahat hesab etdiyi canlı öyrənmə mühiti bu gün bizdən asılı olmayan səbəblərdən təşkil etmək mümkün deyil. Ona görə də cəmiyyətdə bəzən elə düşünülür ki, canlı təhsildən distant təhsilə keçilir. Əslində böhran vəziyyətində öyrənmək üçün mümkün olan edilir. Yəqin ki, nazir brifinqdə I yarım ilin başa çatması ilə əlaqədar məktəb daxili qiymətləndirilməyə də aydınlıq gətiriləcək. Məlum olduğu kimi artıq, ali məktəblərdə payız semestrinin imtahan sessiyasının ilk həftəsi başlayıb və distant formada davam edir. İmtahan sessiyasının təşkili və keçirilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin müvafiq əmri də var. Qiymətləndirmə mexanizminin onlayn müstəvisində həll edilməsi zərurəti ilə əlaqədar, ümumtəhsil məktəblərində təlim prosesində əks-əlaqənin təmin edilməsi, təhsilin keyfiyyətinin idarə olunması, inkişaf dinamikasının izlənilməsi və proqnozlaşdırılması üçün real vəziyyətin öyrənilməsi məqsədilə şagird nailiyyətlərinin mill qiymətləndirilməsi də keçirilib”.

> *“Bu gün hər hansı bir proqnoza və gözləntiyə əsasən deyil, real vəziyyətə uyğun hərəkət etməliyik”*

Nadir İsrafilov həmçinin qeyd edib ki, respublikamızda koronavirus əleyhinə vaksinasiyaya başlanmasına qərar verildiyini nəzərə alaraq təhsil müəssisələrinin də təhsilin ayrı-ayrı pilləri üzrə, mərhələlər əsasında ənənəvi formada fəaliyyətə başlaması istisna olunmur:

“II yarımildə tədrisə hansı formada başlanacağından asılı olmayaraq, özündə klassik və yeni texnologiyaları birləşdirən alternativ təhsil - “Hibrid” adlandırdığımız təhsil - vəziyyətdən asılı olaraq təhsil mühitinin yaradılması üçün yeni, qabaqcıl texnologiyaların köhnə, sınanılmış metodlar ilə birləşməsindən ibarət bir təhsil forması kimi istifadə olunmaqda davam edəcək. Yəni, bu gün hər hansı bir proqnoza və gözləntiyə əsasən deyil, real vəziyyətə uyğun hərəkət etməliyik”.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# “Hazırda Füzulidə hava limanına ehtiyac var”

**Füzuli beynəlxalq aeroportunun təməli qoyulub və Prezidentin göstərişinə əsasən beynəlxalq aeroport bu il istifadəyə verilməlidir. Füzuli aeroportundan beynəlxalq uçuşların təşkil edilməsi də nəzərdə tutulur. Bir çox ekspertlər Füzuli aeroportunun tikintisini ermənilərin hər vəchlə Azərbaycanın nəzarəti təmin edilmədən Xocalı hava limanının fəaliyyətə başlamasına nail olmaq istəyi ilə əlaqələndirirlər. Qeyd edək ki, erməni mətbuatında vaxtaşırı olaraq Xocalı hava limanının fəaliyyətə başlayacağı ilə bağlı konkret tarixlər göstərilsə də bu məlumatlar sonradan öz təsdiqini tapmayıb.**



**Elxan Şahinoğlu**
politoloq

*Bu o demək deyil ki, biz Xocalı hava limanından əlimizi üzmüşük*

Xocalı aeroportu ilə bağlı yaranan mübahisəli məqamların fonunda Füzulu aeroportunun tikilməsi, Füzulidən Şuşaya yolun çəkilməsi nədən xəbər verir?

Politoloq Elxan Şahinoğlu “Həftə içi”nə bildirib ki, Azərbaycan təbii olaraq Xocalı aeroportunu öz nəzarətinə götürməli, ora bizim hərbçilərimiz və gömrük xidmətimiz nəzarət etməlidir. Politoloq hazırda Dağlıq Qarabağa, Şuşaya səfərlər etmək üçün Füzulidə aeroportun olmasına ehtiyac duyulduğunu deyib:

“Bu ilin yay ayında Şuşada, Qarabağda böyük tədbirlərin keçirilməsi nəzərdə tutulur. Ona görə də Füzulidə belə bir hava limanı tikilir. Bu o demək deyil ki, biz Xocalı hava limanından əlimizi üzmüşük. Bu, belə deyildir. Xocalı bizim nəzarətimizdə olmadığına görə, oradakı hava limanından hər hansı uçuşlara icazə verə bilmərik. Oradan separatçılara silah-sursat daşına bilər. Xocalı hava limanı o halda işləyə bilər ki, həmin ərazilər tam olaraq bizim nəzarətimizdə olsun”. Politoloq bildirib ki, hazırda Xocalıya və digər ərazilərə nəzarət edən Rusiya sülhməramlılarının fəaliyyəti faktiki olaraq Azərbaycana qarşı yönəlib: “Sülhməramlılar separatçılarla birləşiblər. Rusiya sülhməramlılarının özbaşınalığının qarşısını almaq üçün bölgəyə Türkiyə hərbçiləri gəlməlidir. Ağdamda Monitorinq Mərkəzi fəaliyyətə başlamalıdır. Bundan başqa biz Laçındakı dəhlizi nəzarətə götürməliyik.

Elcə də Türkiyə hərbçiləri Laçın və Kəlbəcərdə də olmalıdır. Azərbaycan Laçın dəhlizində giriş-çıxışa nəzarət etməlidir. Həmin ərazilərə sərhədçilərimiz nəzarət etməsə, belə pozuntilar getdikcə davam edəcək. Bu olmadığı təqdirdə, Azərbaycan ərazilərində hava nəqliyyatı bərpa edilə bilməz. Xocalı hava limanının bərpası bütün nəzarətin Azərbaycana keçməsindən başlayır”.

✍ ***Tahirə Qafarlı***

# Statistika



**2020-ci ildə Azərbaycana dünyanın 155 ölkəsindən 795,7 min və ya 2019-cu illə müqayisədə 4,0 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. 2020-ci ildə ölkəmizə gələnlərin 28,3 faizi Rusiya Federasiyası, 23,2 faizi Gürcüstan, 20,2 faizi Türkiyə, 9,1 faizi İran, 2,1 faizi Ukrayna, 1,6 faizi Hindistan, 1,5 faizi Səudiyyə Ərəbistanı, 1,1 faizi Qazaxıstan, hər birindən 1,0 faiz olmaqla Pakistan, Birləşmiş Ərəb Əmirlikləri və Türkmənistan, hər birindən 0,9 faiz olmaqla Küveyt və Böyük Britaniya, 0,8 faizi Belarus, hər birindən 0,7 faiz olmaqla Özbəkistan və İraq, 0,5 faizi İsrail, hər birindən 0,4 faiz olmaqla Almaniya və İtaliya, 4,5 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 81,1 faizini kişilər, 18,9 faizini qadınlar təşkil edib.**

Ötən il ərzində Çindən gələnlərin sayı 16,7 dəfə, Cənubi Koreyadan - 13,8 dəfə, İsraildən - 11,1 dəfə, Yaponiyadan - 10,2 dəfə, Polşadan - 10,0 dəfə, İraqdan - 9,8 dəfə, Səudiyyə Ərəbistanından - 9,0 dəfə, Birləşmiş Ərəb Əmirliklərindən - 8,6 dəfə, Macarıstandan - 8,3 dəfə, Omandan - 7,5 dəfə, Kanadadan - 7,4 dəfə, ABŞ-dan - 7,2 dəfə, Qətərdən - 6,7 dəfə, Türkmənistandan - 6,3 dəfə, Fransadan - 6,0 dəfə, Almaniyadan - 5,8 dəfə, Qazaxıstandan - 5,6 dəfə, Niderlanddan - 5,3 dəfə, Böyük Britaniyadan - 5,2 dəfə, Misirdən - 5,1 dəfə azalıb.

Ümumilikdə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 5,9 dəfə azalaraq 23,0 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 5,0 dəfə azalaraq 110,7 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 4,2 dəfə azalaraq 273,4 min nəfər olub. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 70,0 faizi dəmir yolu və avtomobil, 27,6 faizi hava, 2,4 faizi isə dəniz nəqliyyatından istifadə edib.

2019-cu illə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 4,8 dəfə azalaraq 1164,6 min nəfər olub. Ölkə vətəndaşlarının 29,2 faizi İrana, 26,4 faizi Gürcüstana, 18,9 faizi Rusiya Federasiyasına, 16,4 faizi Türkiyəyə, 9,1 faizi digər ölkələrə səfər edib. Gedənlərin 70,4 faizini kişilər, 29,6 faizini qadınlar təşkil edib. Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 6,0 dəfə, Gürcüstana gedənlərin sayı 5,2 dəfə, Rusiya Federasiyasına gedənlərin sayı 4,5 dəfə, Türkiyəyə gedənlərin sayı isə 3,3 dəfə azalıb. 2020-ci ildə xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının 73,2 faizi dəmir yolu və avtomobil, 23,8 faizi hava, 3,0 faizi isə dəniz nəqliyyatından istifadə edib.

# COVID-19 ABŞ-da orta ömür həddinin azalmasına səbəb olub

**COVID-19 pandemiyası Amerika Birləşmiş Ştatlarında 2020-ci ildə orta ömür həddini azı 12 ay qısaldıb: bu göstərici təqribən 78,5 yaşdan 77,5 yaşa enib.**



Bu barədə “Proceedings of the National Academy of Sciences” elmi jurnalında dərc edilən hesabatda bildirilir. Koronavirusun ömür həddinə təsiri ilə bağlı sosial tədqiqat aparan “Proceedings of the National Academy of Sciences” aparıcı Amerika nəşridir, burada müxtəlif sahələr, əsasən biologiya və tibb, həmçinin fizika və sosial elmlər üzrə orijinal elmi tədqiqatlar dərc edilir. Məlumatlara əsasən, afroamerikalıların ömür həddi azı 2 il, Latın amerikalılarında isə müvafiq göstərici azı 3 il azala bilər. Tədqiqatçıları fikrincə, ağdərili insanların ömrünün 1 ildən az qısalması mümkündür. Ötən il koronavirus Birləşmiş Ştatlarda 336 min insanın ölümünə səbəb olub. Tədqiqatın həmmüəllifi, Los-Ancelesdəki Cənubi Kaliforniya Universitetinin Leonard Devis adına Herontologiya Məktəbinin elmi işçisi Tereza Andrasfayın bəyanatında deyilir: “COVID-19 ABŞ-da, xüsusən afroamerikalı və Latın amerikalılar arasında ömür həddinə böyük təsir edib. Bilirik ki, əhalinin bu qrupunun nümayəndələrində COVID-19 koronavirusundan ölüm riskini artıracaq bəzi xəstəliklər daha yüksək səviyyədə olur”. 2010-cu ildə əhalinin siyahıyaalınması göstəricilərinə görə, ABŞ əhalisinin 13 faizini afroamerikalılar, təxminən 18 faizini Latın amerikalılar təşkil edir.

# Qarabağa avtobus marşrutlarının təşkili ilə bağlı pasportlar hazırlanıb

**2020-ci ilin yanvar ayında işğal altından azad olunan Cocuq-Mərcanlıya ilk marşrut xəttinin açılışı təmin edilib.**



Bu barədə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyat Xidmətinin 2020-ci ilin hesabatında bildirilir.Sənəddə həmçinin deyilir ki, işğaldan azad edilən şəhər və rayonlara marşrutların açılması üzrə pasportlar hazırlanaraq, daşıyıcıların müəyyən edilməsi üçün qanunauyğun müsabiqələrin keçirilməsinə dair hazırlıq işlərinin təşkil edilməsi ilə bağlı müvafiq əmr artıq hazırlanıb.

# 2021-ci ildə dollar məzənnəsini qoruyub saxlayacaq

*Son günlərdə ölkədə xarici valyuta çatışmazlığı ilə bağlı iddialar səsləndirilir. Məhz bunun nəticəsidir ki, artıq xarici valyuta, xüsusilə də dollar və avronun bahalaşacağına dair proqnozlar irəli sürülür. Yayılan iddialar fonunda əhali arasında da müəyyən təşviş hökm sürməkdədir. Bu məsələ ilə bağlı hafta.az Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vahid Əhmədovla söhbətləşib.*



**Vahid Əhmədov,**
Milli Məclisin deputatı

***- Vahid müəllim, son günlər xarici valyuta bazarında ajotaj müşahidə edilir. Sizcə, ölkədə dollar və avro qıtlığına səbəb nədir?***

- Bu məsələdə heç bir ajotaja ehtiyac yoxdur. Kimlərinsə sui-istifadə halları yaratması yolverilməzdir. Kimlərsə bazarda hay-küy salır ki, dolların qiyməti bahalaşacaq və manat ucuzlaşacaq. Biz 2021-ci ilin dövlət büdcəsinə baxanda bu məsələ müzakirə olundu və Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmovun dediyi kimi, büdcədə də qəbul olundu ki, bu il dollar 1,70 manat səviyyəsində saxlanılacaq.

Digər tərəfdən, dolların qiymətinin dəyişməsinə indi ümumiyyətlə ehtiyac yoxdur. Hazırda Qarabağın azad edilməsi ilə əlaqədar çox ciddi işlər görülür, həmin ərazilərin abadlaşdırılması üçün külli miqdarda vəsait ayrılıb. Həm özəl, həm də dövlət şirkətləri bu ərazilərin bərpasında iştirak edəcəklər. Belə bir vəziyyətdə dolları bahalaşdırmaq nə dərəcədə məqsədəuyğundur? Ən azı, bu ilin birinci yarımilində və ümumiyyətlə, 2021-ci ildə dollar məzənnəsini qoruyub saxlayacaq. Ola bilər ki, bu məqsədlə müəyyən ehtiyatlardan istifadə olunsun. Bunda da heç bir problem yoxdur.

Bu il bizim çox böyük xərclərimiz var. İstər şəhid ailələrinə, istər qazilərə sosial müavinətlərin ödənilməsi, evlərin tikilib verilməsi üçün vəsaitlər ayrılıb. Yəni, bu il görüləcək işlərimiz çoxdur. Belə bir şəraitdə dollar ətrafında ajotaj yaradanlar bunu məqsədli şəkildə edirlər və bu məsələdə hüquq-mühafizə orqanları öz üzərlərinə düşən işi görməlidirlər.

***- Əgər ölkədə dollar qıtlığı yoxdursa, o zaman banklar dolları niyə limitlə satır?***

- Əslində, istənilən qədər valyuta götürmək imkanları var. Ola bilər müəyyən banklar buna getmirlər. İmkanları aşağı səviyyədədir. Amma yenə də deyirəm ki, Azərbaycanda dollarla bağlı heç bir problem yoxdur. Ölkədə kifayət qədər dollar var.

***- Bilirik ki, 2017-ci ildə "Valyuta tənzimi haqqında" qanuna edilən dəyişikliklər "exchange"lərin yenidən fiziki və hüquqi şəxslər tərəfindən yaradılaraq fəaliyyətə başlamasına imkan verdi. Lakin bu proses nədənsə ləngiyir. Sizcə, bu ləngimənin səbəbləri nədən ibarətdir?***

- Düzdür, bununla bağlı qanun var və həmin qanun da qüvvədədir. Həmin qanunvericiliyə görə, valyutadəyişmə əməliyyatları ilə məşğul olmaq istəyənlər lisenziya almalı, 50 min manat həcmində kapital qoyuluşu həyata keçirməlidir. Kim istəyir getsin müraciət etsin, açsın. Ola bilər ki, bu işlə məşğul olanların artıq həmin kapitalı yatırmağa imkanı yoxdur. Bir məqam da var ki, indi çoxları bu məsələyə ehtiyatla yanaşır. Valyutadəyişmə məntəqəsi çox olanda müəyyən problemlər də yaranır. Ola bilsin ki, bütün bunlar prosesin ləng getməsinə səbəb olur.

> *"Valyutadəyişmə məntəqəsi çox olanda müəyyən problemlər yaranır*

***- Hazırda manata ciddi təzyiqlərin olduğu ətrafında fikirlər mövcuddur. Sizcə, 2021-ci il ərzində manat indiki səviyyəsini qoruyub saxlaya biləcəkmi?***

- Manata təzyiqlər həmişə olub. Manata təzyiq edən əsas amillərdən biri neftin qiymətidir. Neftin qiyməti düşdükcə manata təzyiq artır, neftin qiyməti artdıqca manata təzyiq azalır. Hazırda neftin 1 barreli 56 dollardan bir qədər yüksəkdir.

Hələlik manata hansısa təzyiqdən söhbət gedə bilməz. Əgər təzyiq olsa belə indiki şəraitdə manat qorunub saxlanılacaq.

***- Bəs, dünyada baş verən hadisələr fonunda bu il dolların məzənnəsində dəyişiklik gözlənilirmi?***

- Bununla bağlı yanvarın 20-dən sonra ABŞ-da baş verəcək hadisələri, atılacaq addımları gözləməliyik. Görək Bayden inaqurasiyasından sonra hansı siyasəti yürüdəcək. Bu dolların məzənnəsi ilə əlaqədar böyük əhəmiyyət kəsb edən məsələdir. Dolların hansı vəziyyətdə olmasından asılı olmayaraq Azərbaycan bu il milli valyutanın məzənnəsini qoruyub saxlamalıdır ki, Qarabağda nəzərdə tutulan böyük quruculuq işlərini apara bilsin.

***Sevinc***

## Statistika

**Ötən il ümumilikdə 26 min 4 cinayət qeydə alınıb. Bu cinayətlərin 86,7 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.**

Əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 8 fakt azalaraq 257 olub. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə cinayətlərin 85,5 faizinin, eləcə də prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 310 cinayətin açılması təmin edilib. Ötən il, 254 kriminal qrup zərərsizləşdirilib, odlu silah saxlayan və daşıyan 161 şəxs cinayət məsuliyyətinə cəlb edilib. Qanunsuz dövriyyədən 1 ton 873 kiloqram narkotik vasitə çıxarılıb, yabanı halda yetişən 153 tondan çox narkotik xassəli bitki aşkarlanaraq məhv edilib.

---

Ötən il dəmir yolu nəqliyyatı ilə 7 milyon 123,7 min ton yük daşınıb ki, bu yüklərin dəyəri 2 milyard 592,9 milyon ABŞ dolları olub. Dəmir yolu nəqliyyatı ilə ixrac olunan 2 milyon 319,1 min ton yükün dəyəri 488,6 milyon dollar təşkil edib. İl ərzində bu nəqliyyat növü ilə idxal edilən yüklərin həcmi 4 milyon 804,6 min ton, dəyəri isə 2 milyard 104,3 milyon dollar olub.

---

Keçən il Azərbaycandan MDB ölkələrinə 1 milyard 306 milyon 95 min ABŞ dolları dəyərində məhsul ixrac edilib. Bu göstərici 2019-cu ilə nisbətən 127 milyon 658 min dollar çoxdur. Ötən il Azərbaycanın MDB ölkələrindən idxal etdiyi məhsulun dəyəri isə 2 milyard 801 milyon 712 min dollar olub. Ötən il Azərbaycanın ən çox məhsul ixrac etdiyi İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələri sırasında ilk üçlükdə Türkiyə, Tunis və Malayziya qərarlaşıb. Türkiyəyə ixracın dəyəri 2 milyard 297,7 milyon dollar, Tunisə 312,2 milyon dollar, Malayziyaya isə 60,6 milyon dollar olub. 2019-cu ilə nisbətən Türkiyəyə ixracda azalma, Tunis və Malayziyaya isə artım müşahidə edilib.

# Moskvanın Qarabağ planı - Lavrov açıqladı

◂ əvvəli 1-ci səhifədə



Ən pisi budur ki, bunu uzunmüddətli bir strategiya olaraq görürlər, onların təbrincə desək davamlı sülhün şərti kimi nəzərdə tuturlar. Bu, Azərbaycanın milli maraqlarına ziddir, həmçinin milli təhlükəsizliyinə təhdiddir. Aydındır ki, müharibə yaraları, xüsusən ermənilərin vəhşilikləri ilə bağlı elə vəziyyət yaranıb ki, yaxın vaxtlarda Xankəndində erməni və azərbaynalı qonşular kimi yaşaması, yaxud birgəyaşayışını təmin emtək çətindir. Bu bütün tərəflər üçün aksiomadır. Bu o demək deyil ki, ərazi Azərbaycanın suverenliyindən kənarda qalmalıdır".



**Zaur İbrahimli,**
politoloq

Politoloq hesab edir ki, Azərbaycan üçün hərbi əməliyyatlar qədər çətin dövr başlayıb. Onun fikrincə, bu 44 günlük zəfərlə başa çatan Vətən Müharibəsinin nəticələrinin qorunub saxlanması, inkişaf etdirilməsidir.

"Azərbaycanın ən böyük güzəşti 10 noyabda Xankəndinin astanasında hücum əməliyyatlarını dayandırması oldu. Bu güzəşt müqabilində Azərbaycandan suverenliyin bir qismini güzəştə getməyi gözləmək ağılsız bir yanaşmadır. Azərbaycan hər an rus-erməni təxribatına hazır olmalı, cəmiyyətimiz birliyini, həmrəyliyini qorumalıdır. Rəsmi Bakı sülhməramlı qüvvlərin status məsələsində qətiyyətini qorumalıdır. Bunu şərtləndirən, güc verən xalq iradəsi, birliyi də aşkardır. Rusiya cənub cinahında sabit, dost, müttəfiq ölkə görmək istəyirsə, bu iradə ilə hesablaşmaq məcburiyyətində qalacaq. Yalnız biz bir, həmrəy olmalıyıq və sayıqlığı itirməməliyik. Azərbaycan həmçinin əlverişli beynəlxalq konyukturdan da faydalanmalıdır, Rus sülhməramlıları özlərini işğal qoşunu kimi aparacaqsa, bunu bütün dünyaya çəkinmədən bildirməliyik.

> *"Rəsmi Bakı sülhməramlı qüvvlərin status məsələsində qətiyyətini qorumalıdır"*

Bu arada Rusiyalı diplomatın erməni siyasilərə xəbərdarlıqlarına baxmayaraq, İrəvanda hələ də qisasçıruhlu və sıravi vətəndaşları təxribatlara sürükləyəcək bəyanatların ardı-arası kəsilmir. Belə ki, Ermənistan parlamentinin müstəqil deputatı Sergey Baqratyan Azərbaycanla sərhədyanı zonada məskunlaşan ermənilərin döyüş silahları ilə silahlandırılmasını təklif edib:

"Yaxın günlərdə bu məsələ ilə bağlı qanun layihəsini parlamentə təqdim edəcəyəm. Sərhəddə yaxın ərazilərdəki vətəndaşlar müvafiq döyüş hazırlığı keçməli, minimum mövcud psixoloji gərginliyin öhdəsindən gəlməlidirlər".

Qeyd edək ki, başda Ermənistan ombudsmanı və Paşinyana müxalif qüvvələrin rəhbərləri olmaqla hər fürsətdə Azərbaycandan qisas alınacağına eyham vurur, üçtərəfli bəyanatların reallaşması perspektivlərini heçə endirmək üçün əllərindən gələni edirlər.

***Azad***

# Bu il neftin orta qiyməti 50 dollar olacaq



***Ötən il qlobal enerji bazarında müşahidə olunan gərginlik nisbətən sabitləşib. Təxminən, 1 aya yaxındır ki, dünya birjalarında neftin bir barrelinin qiyməti 50-55 dollar civarında dəyişir. Bəs, görəsən, neft bazarındakı sabitlik davamlı olacaqmı? Neftin builki qiyməti ilə bağlı verilən proqnozlar özünü doğruldacaqmı? Bu suallar ətrafında "Həftə içi" qəzetinin müsahibi Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabandır.***

**İlham Şaban,**
Neft Araşdırmaları Mərkəzinin rəhbəri

***- İlham müəllim, bu gün neft bazarında müəyyən qədər sabitliyin müşahidə olunması hansı faktorlarla bağlıdır?***

- Dekabrın birinci dekadasından indiyədək neftin qiyməti 50 dollardan yuxarıdır. Yanvarın 8-də neftin qiyməti 2020-ci ilin 25 fevralından bəri ilk dəfə 55 dolları keçib. Bu qiymət artımına gətirən amillər kifayət qədər çox idi. Əslində indi diapazon olduqca genişdir. Çünki bazara təsir edən amillərin proqnoz edilməyən halları çoxalıb. Tutaq ki, "covıd"lə bağlı vəziyyət necə dəyişəcək? Bunu proqnoz etmək həddindən artıq mürəkkəb bir məsələdir. Məsələn, ABŞ kimi bir ölkədə vaksinasiya da tətbiq olundu. Amma onun yaradıcısı qeyd edir ki, biz ilkin nəticələri aprelin əvvəlində görə biləcəyik. Ümumiyyətlə isə ABŞ-da ikinci, üçüncü dəfə vaksinasiya hesabına 2021-ci ilin ortasında bu bəladan qurtula biləcəklərini proqnozlaşdırırlar. Yəni, bunun özü məchul bir şeydir. Vəziyyət martda necə olacaq, apreldə necə olacaq? Bunu proqnoz etmək qeyri-mümkündür. Digər tərəfdən, burada klimatik faktorlar da rol oynayır. Hazırda dünyanın əksər ölkələrində soyuq hava şəraiti hökm sürür, bəzi yerlərdə qar yağıntısının hündürlüyü 1 metrə yaxınlaşıb. Məsələn, İspaniya bəyan edib ki, hava şəraitinin sərtləşməsi ölkə iqtisadiyyatına 1,5 milyard avro ziyan vurub. Məsələ bundadır ki, bu cür hava şəraiti enerjiyə olan tələbatı əhəmiyyətli dərəcədə artırır. Bu da neftin qiymətinin 50 dollardan yuxarı saxlanılmasına kömək edən obyektiv səbəbdir. Bir də subyektiv səbəblər var. Həmin səbəblər ondan ibarətdir ki, bazara il başlayandan daha çox ümidverici xəbərlər gəlir. Belə ki, dünyanın əksər ölkələrində vaksinasiyaya başlanılıb. Bunun nəticəsində insanların həyatına olan təhlükə azalacaq. Dünya üzrə koronavirusdan ölüm halları da azalmağa doğru gedir. Bu o deməkdir ki, ölkələr arasında gediş-gəliş bərpa olunacaq, insanların hərəkətini məhdudlaşdırıcı faktorlar aradan qaldırılacaq, nəticədə enerjiyə tələbat yaranacaq. Digər tərəfdən, yanvarın 5-də OPEK+ çərçivəsində qəbul edilən qərar da neftin qiymətinə təsir göstərdi. Bu qərarla hasilatın birinci rüb ərzində demək olar ki, dəyişməz qalması təsbit olunub. Biz indi fevralın 10-u ətrafında əvvəlcə OPEK-in, daha sonra isə Beynəlxalq Enerji Agentliyinin ilin ilk ayında bazarlardakı vəziyyətə dair hesabatları ilə tanış olacağıq. Bu cür hesabatlar bazara təsir edən amillərdir. Onun nəticəsində də biz hər ay neftin qiymətində müəyyən dəyişmələri müşahidə edirik.

***- Bildiyimiz kimi, bu il Azərbaycanın dövlət büdcəsində neftin bir barreli 40 dollardan nəzərdə tutulub. Cari ildə neftin qiyməti ilə bağlı verilən proqnozlar özünü doğruldacaqmı?***

- Demək olar ki, neftlə bağlı proqnozlar ildə 4 dəfə korrektə edilir. Tutaq ki, 2021-ci il üzrə proqnoz noyabrın sonunda verilmiş proqnozdur. Həmin proqnoza əsasən, brent markalı neftin 1 barellinin qiyməti 47-49 dollar ətrafında dəyişəcək. Hansı ki, bu da 2020-ci illə müqayisədə təqribən 10 faiz artım deməkdir. Fevral ayının sonunda isə adətən neftin qiymətində ilk korrektələr edilir. Bu da ondan qaynaqlanır ki, il başa çatır, şirkətlər, o cümlədən ölkələr öz hesabatlarını açıqlayırlar və bununla daha dəqiq məlumat olur ki, məhz dördüncü rübdə sənaye necə inkişaf edib, enerjiyə tələbat necə olub. Bunun əsasında neftin qiymətində ilin ilk korrektəsi aparılır. Sonrakı növbəti korrektə adətən may ayında edilir. Daha sonra sentyabr və noyabr aylarında qiymətlə bağlı korrektələr aparılır. Yəni, real iqtisadi vəziyyətə uyğun olaraq proqnoz irəli sürülür. Azərbaycan hökümətini neft çıxaran ölkələrlə müqayisə etsək görərik ki, bizdə proqnozla bağlı vəziyyət qənaətbəxş deyil. Tutaq ki, qonşu Rusiyada neftin qiyməti il ərzində təxminən 6 dəfə korreksiya edilir. Eyni zamanda, bir neçə qurum fərqli yanaşma ortaya qoya bilir. Bizdə isə təəssüflər olsun ki, sovet dönəmində olduğu kimi ildə bir dəfə büdcə müzakirəsi zamanı nə proqnoz verilsə o proqnozun üstündə durulur. Bu təkcə neftə deyil, o cümlədən istehsala da aiddir. Yəni, bizdə hökümətin proqnoz vermək qabiliyyəti arzuolunan səviyyədə deyil. Bu, əsasən pandemiya ilə əlaqədar edilən peyvəndlərin nəticəsindən çox asılı olacaq. Nəticə yaxşı olsa, təbii ki, bu qiymətlərə də təsirini göstərəcək. Və biz o zaman neftin qiymətinin 55 dollara qədər yüksəldiyini müşahidə edə bilərik. Məsələn, bir həftə neftin qiyməti 55-60 dollar diapazonunda qaldı və cümə günü brent markalı 1 barrel neft London birjasında 54,98-lə bağlandı. Hazırda brent neftinin 1 barreli 54 dollar 60 sentə qədər uzuzlaşıb. Deməli, ilin əvvəlində bazarda müəyyən canlanma yaratmış müsbət xəbərlərin artıq bazara təsiri azalmağa doğru gedir. Neftin qiymətinin yenidən 55-60 dollar diapazonuna keçid etməsi üçün bazara yeni siqnallar lazımdır. Ümumilikdə götürəndə isə qeyd edim ki, 2015-ci ildən başlayaraq son 5 ildə dünya üzrə brent markalı neftin orta qiyməti 54 dollar olub. Yəni, dünya neftin bu qiymətinə istehsalçı-istehlakçı qismində öyrəşib. Bu normal bir qiymətdir. Nə vaxtsa qiymət 70,80,100 dollar ola bilər. Amma bu bazar iştirakçılarının o qədər də alışdığı qiymət deyil, ona görə də alıcısı çox olmayacaq.

> *Azərbaycanda hökümətin proqnoz vermək qabiliyyəti arzuolunan səviyyədə deyil*

***- Bəs, il ərzində qlobal bazarda neftin mövcud qiyməti qorunub saxlana biləcəkmi?***

- Təxminən 1,5 aydır ki, neftin qiyməti 55 dollar civarındadır. Bazarda ciddi təlatüm yoxdur. Fikrimcə, neftin qiymətini müəyyən aralıqlarda biz 45 dollar da müşahidə edəcəyik. Çünki neft bazarda satılan elə bir qlobal məhsuldur ki, yolu rəvan deyil. Keçən ilin qiymətlərinə baxaq. Brent markalı neftin qiyməti 42 dollardan bir qədər artıq oldu. Apreldə 16 dollardan aşağı bir həddə düşdü. Ancaq iyun ayının 4-də 40 dolları keçə bildi və o zamandan noyabra kimi neftin qiyməti 3 dəfə 37 dollara qədər ucuzlaşıb. Onu da xatırlamalıyıq ki, ilin əvvəlində qiymət 71 dollar 71 sent idi. Ötən il o qədər böyük mənfi dinamika olmuşdu ki, bazara sarsıdıcı zərbələr vurulmuşdu. Keçən dövr hər mənada depressiyalı bir dövr idi. İndi yavaş-yavaş həmin şokların azalmasını müşahidə edirik. Çox güman ki, hər hansı fövqəlhadisə baş verməsə, cari ildə brent markalı neftin orta qiyməti 50 dollardan yüksək hədlə ili başa vuracaq. Bu da Azərbaycan büdcəsi üçün təqribən 25 faiz artım deməkdir. Hazırda hökumətin 3 milyard 116 milyon manat həcmində çox böyük kəsri var. Bu vəsait büdcə kəsrinin örtülməsində hökümətin manevr imkanlarını artıracaq.

***- Əgər il ərzində qiymət 50 dollardan yüksək olarsa, büdcədə neftin qiymətinə yenidən baxıla bilərmi?***

- Bu ilin büdcəsi başqa illərin büdcəsindən çox fərqlənir. Demək olar ki, tələsik bir büdcə sənədi oldu. Digər tərəfdən, ötən il iqtisadiyyatı 4 faizlik azalma ilə başa vurmuşuq. Bu il iqtisadiyyatda təxminən 3,4 faiz artım proqnozlaşdırılır. Ümumilikdə, gərgin bir ili yola salmışıq. Bu baxımdan fikir söyləmək, proqnoz vermək çətindir. Büdcəyə dəyişikliklər edilə bilər. Ancaq bunun üçün atacağımız addımlar görəcəyimiz işlərə adekvat olmalıdır.

***- Azərbaycanın Avropa bazarına qaz ixracından əldə olunacaq vəsaitlər barədə nə deyə bilərsiniz? Bu addım Azərbaycan dövlətinə nə qədər maliyyə resursları gətirəcək?***

- Bir məqamı vurğulayım ki, biz neftimizi 1998-ci ildən qlobal bazarda satmağa başlamışıq. Azərbaycan, təxminən, 100 milyon məfəətini ancaq 1999-cu ilin dekabr ayında əldə edib. Təsəvvur edin ki, biz "Şahdəniz-2" layihəsinə çox böyük kapital qoyaraq hasilata başlaya bildik. Hasilatın 10 milyard kub metri Avropa bazarına yönəldiləcək. O həcmə hələ yaxın 2 ildə çatılacaq. Ona görə də hələlik "Şahdəniz"dən gələn gəlirlər 500-600 milyon dollar ətrafında olacaq. Amma sonrakı illərdə əlbəttə ki, bu gəlir bazarda qiymətlərdən asılı olaraq 3-4 dəfə, hətta 5 dəfəyə qədər arta bilər.

***Sevinc***

# “Qarabağa qayıtmaq istəyi artıq mübahisə predmeti deyil”

***Milli Məclisin Laçın rayonundan deputatı, iqtisad elmləri üzrə fəlsəfə doktoru Mahir Abbaszadə ilə 44 günlük müzəffər Vətən savaşından sonrakı ilk görüşümüzdə öncə onu torpaqlarımızın, o cümlədən doğma Laçın rayonu və doğulub boya-başa çatdığı Güləbird kəndinin də işğaldan azad olunması münasibətilə təbrik etdik. Parlament üzvü işğaldan azad olunmuş Qarabağ torpaqlarına Böyük Qayıdış proqramı, həmin proqramın həyata keçirilməsi qarşısındakı çətinliklər, Milli Məclisdə bu istiqamətdə görülmüş və gözlənilən işlər, konkret olaraq Laçın rayonuna qayıdışla bağlı problemlərdən və s. bəhs edib.***

**(əvvəli ötən sayımızda)**



**Mahir Abbaszadə,**
Milli Məclisin deputatı,
iqtisad elmləri üzrə fəlsəfə doktoru

***- Mahir müəllim, işğaldan azad olunmuş torpaqlara qayıdacaq vətəndaşlarımıza hansı əlavə güzəştlər nəzərdə tutulması haqqında məlumatınız varmı?***

- Əlbəttə, o torpaqlara qayıdacaq vətəndaşların məşğulluq, özünüməşğulluq və biznesin qurulması, inkişafı məsələsi Böyük Qayıdış proqramının əsas tərkib hisssələrindən biridir. Bütün bunlar, sözügedən işlərə yerli özəl sektor və xarici kapitalın cəlb olunması üçün orada normal investisiya mühitinin yaradılmasıyla bağlı məsələlər Azərbaycan dövləti tərəfindən artıq müzakirə edilməkdədir. Hesab edirəm ki, biz yaxın aylarda proqramın bu hissəsinin konkret hədəf və maddələrindən bəhs edə biləcəyik. Təbii ki, burada vətəndaşlara güzəştli kredit və ssudaların verilməsi, o ərazilərdə çalışan şirkətlərə güzəştli, faizsiz kerditlərin ödənilməsi, həmin şirkətlərə vergi güzəştləri və tətillərinin tətbiqi və s. də nəzərdə tutulacaq. Zənnimcə, bəhs olunan tədbirlər görülərkən işğaldan azad rayonların ənənəvi iqtisadiyyatının inkişaf etdirilməsi ilə bağlı da dövlətimiz tərəfindən müvafiq proqramlar hazırlanır. Eyni zamanda bizdə olan məlumata görə, keçmiş məcburi köçkünlərin hazırda da qüvvədə olan güzəşt və imtiyazları, yəni çörəkpulu müavinətləri, kommunal güzəştlər və s. doğma yurdlarında məskunlaşmalarından sonra da bir neçə il saxlanılacaq. Həmçinin, gənc nəslin o torpaqlarda qalıb yaşaması üçün zəruri olan məsələlərin həyata keçirilməsi, büdcə təşkilatlarında çalışanların əmək haqqılarına digər regionlardan fərqli olaraq müəyyən əlavələr olunması və s. məsələlərlə bağlı da güman ki, tezliklə dövlətimiz tərəfindən müsbət addımlar atılacaqdır...

> *Unutmamalıyıq ki, o oğulların şəhidliyi sayəsində məhz biz köçkünlərin ata-baba yurdları azad olunub*

***- Qarabağ torpaqlarına qayıdacaq soydaşlarımızı düşündürən məsələlərdən biri də orada yeni evlərin, yaşayış massivlərinin hansı mexanizm əsasında salınacağıdır. Yəni, deyək ki, şəhərlərdə, rayon mərkəzlərində yaşayanlar üçün əsasən bina evləri, kəndlərdəkilər üçün isə həyət evləri tikiləcək. O tərəfi maraqlıdır ki, əksəriyyət, xüsusən kənd sakinləri yeni evlərinin məhz yandırılmış, dağıdılmış olsa da, keçmiş dədə-baba evinin yerində tikilməsini arzulayır. Bu cür məsələlər öz həllini necə tapacaq?..***

- Bilirsiniz, erməni vandalları əksər yaşayış məntəqələrimizdə yaşayış binalarını, o cümlədən həyət evlərini tamamilə dağıdıblar, bəzilərinin heç divarları da qalmayıb. Ağdamda, Füzulidə qəbiristanlıqları belə, şumlayaraq yerində taxıl sahələri, meyvə bağları salıblar. Bir sözlə, maksimum çalışıblar ki, azərbaycanlıların o torpaqlardakı həyat izlərini tamamilə silsinlər. Həmin izlərin bərpası üçün, təbii ki, dediyiniz məsələlərə müsbət nöqteyi-nəzərdən yanaşılması vacibdir. Yeri gəlmişkən, cənab Prezident də öz çıxışlarının birində erməni vəhşiliklərinin gələcək nəsillərə və xarici qonaq və turistlərə çatdırılması üçün işğaldan azad edilmiş rayon və şəhərlərdə səhra muzeylərinin yaradılmasının vacibliyini vurğuladı...

İşğalçı ermənilər özlərinin qanunsuz məskunlaşdıqları bəzi şəhər və kəndlərdə müəyyən dərəcədə əvvəlki yaşayış evlərini salamat saxlayıb, eyni zamanda özləri də bir neçə ev tikiblər. Bu baxımdan o torpaqlara qayıdacaq soydaşlarımıza yaşayış massivlərinin salınmasıyal bağlı, zənnimcə, iki yanaşma var. Birincisi, tamamilə yer üzündən silinmiş məntəqələrdə büsbütün yeni massivlərin tikilməsidir. İkincisi də, qismən dağıdılmış yaşayış məntəqələrində dağdılmış binaların bərpası ilə yanaşı, yeni binaların tikintisidir... Bir sözlə, hesab edirəm ki, dövlətimiz on illərin əzab-əziyyətindən sonra Qarabağ yurdlarına dönən hər bir keçmiş köçkün vətəndaşın gerçəkliyə uyğun arzu-istəyini maksimum nəzərə almaq üçün mümkün olanı edəcək...

***- 8 Noyabr Zəfərimizdən sonra cəmiyyətdə gündən-günə aktuallaşan müzakirə mövzularından biri də artıq torpaqları azad olunmuş keçmiş məcburi köçkün soydaşlarımızın azad Qarabağ yurdlarına qayıdış istəyinin hansı səviyyədə olmasıdır. Yəqin ki, karantin dövrü olmasına rəğmən ünsiyyətdə olduğunuz laçınlı keçmiş köçkünlərlə də bu barədə söhbətlər edirsiniz?***

- Qəti əminəm ki, nəinki Laçın rayonu, işğaldan azad digər rayonların da hər bir sakini, dəyərli deputat həmkarım Aqil Abbas demişkən, o torpaqlara köçməkdən ötrü ölürlər. Sadəcə olaraq Azərbaycanı sevməyən kimlərsə bu mövzunu mətbuatda və sosial şəbəkələrdə mənfi istiqamətdə qızışdırmağa çalışır. Cənab Prezidentin göstərişinə əsasən, bizdə olan məlumata görə, artıq müvafiq təşkilatlar yaxın günlərdə keçmiş məcburi köçkünlərin torpaqlarına dönmək istəyi ilə bağlı sorğunun keçirilməsinə başlayacaqlar. Və mən elə özüm də bir keçmiş məcburi köçkün kimi sizi inandırıram ki, o yurdların hər bir əsl sakini öz ata-baba yurdunda yaşamaq, yaratmaq, o torpaqların daimi sakini olmaqla bağlı qərarlı və israrlıdır. Bizim onillərlə nəinki arzuladığımız, həsrəti ilə qovrulduğumuz günlər yetişib. Allah Ali Baş Komandanımızı qorusun! Məhz onun - cənab Prezidentin rəhbərliyi, Azərbaycan Ordusunun gücü, şəhidlərimizin, qazilərimizin qanı və canı bahasına o torpaqlar işğaldan azad edilibdir. Sizə deyim ki, bizim torpaqlarımıza dönməyimizlə bağlı yeganə bir çətinlik və təhlükə varsa, o da minalanmış sahələrlə bağlıdır. Bu problem ortadan qalxandan sonra hər bir məcburi köçkün öz torpağına qayıtmaqla bağlı daha da israrlı olacaq. Bir məsələni də vurğulayım ki, şanlı Zəfərimizdən sonra nəninki o torpaqların əsl sakinləri olan keçmiş didərginlər, digər bölgələrimizdən, xüsusən də Qərbi Azərbaycandan (Ermənistan) olan yüzlərlə soydaşımız Qarabağa köçüb orada daimi yaşamaq arzusuyla bağlı artıq aidiyyəti orqanlara rəsmi ərizələr veriblər. Odur ki, işğaldan azad torpaqlarımıza qayıtmaq istəyi məsələsinin mübahisə predmeti olmadığını düşünürəm... Hazırda bu arzu, istəklə yaşayan hər bir azərbaycanlı o yurdlara qayıdışın start götürməsi ilə bağlı ölkə Prezidentinin qərar və göstərişlərini səbirsizliklə gözləyir...

***- Məlum olduğu kimi, dövlət başçısı bu günlərdə məcburi köçkünlər üçün nəzərdə tutularaq tikintisi başa çatmış və ya tikilməkdə olan yeni evlərin şəhid ailələrinə verilməsi haqda qərar verdi. Əlbəttə, bu, ədalətli addımdır. Bir məsələ qaranlıq qalır ki, sizin laçın rayonundan olan seçiciləriniz arasında da elə keçmiş köçkünlər var ki, onillərlə həddindən artıq dözülməz şəraitdə yaşayıb və son Vətən müharibəsinədək tezliklə yeni mənzillərlə təmin olunmalarına ümidli olublar. Təbii ki, torpaqlarımıza qayıdış prosesi isə azı bir neçə il çəkəcək. Belə keçmiş köçkünlər üçün dövlətimiz tərəfindən hər hansı bir istisna nəzərdə tutulmayıb ki?***

- Son 25-30 il ərzində Azərbaycan dövləti tərəfindən məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün kifayət qədər işlər görülüb. Bilirsiniz ki, 109-dan artıq yeni qəsəbə tikilib, təxminən, 47 minə yaxın ailə yeni evlərlə təmin olunub. Həmin müddət ərzində hər bir məcburi köçkün sosial müavinətlə təmin olunub. Köçkün övladları dövlət ali təhsil müəssisələrində ödənişsiz təhsillə təmin edilib. Bir sözlə, dövlətimiz dünyada qaçqın və məcburi köçkünlərə baxışla bağlı yeni, unikal bir model ortaya qoyub. Bu sahədə araşdırma apardığımdan dəqiq bilirəm ki, heç bir dövlətdə bunun analoqu yoxdur. İndi 44 günlük müzəffər Vətən müharibəsindən sonra tamamilə fərqli bir gerçəklik yaranıb. Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımız işğaldan azad olunub və öncə ətraflı söylədiyimiz kimi, artıq keçmiş köçkünlərimizin həmin yurdlara qayıdışı, tezliklə onlar üçün o torpaqlarda yeni evlər tikilməsi üçün sürətli işlər aparılır. Bu baxımdan cənab Prezidentin də vurğuladığı kimi, artıq Bakı, Sumqayıt və digər ərazilərdə tikilmiş və tikilməkdə olan yeni evlərin şəhid ailələrinə verilməsini yəqin ki, keçmiş köçkün soydaşlarımız anlayışla qarşılayır. Təbii, dediyiniz kimi, yalnız Laçın rayonundan deyil, digər bölgələrdən olan keçmiş köçkünlər arasında da çox ağır şəraitdə, normal binalarda deyil, qəzalı yataqxana, məktəb və bağçalarda, yarımçıq tikililərdə yaşayan və illərlə yeni mənzillərə köçürülməsini gözləyənlər var. Digər tərəfdən biz məcburi köçkünlər də onu unutmamalıyıq ki, bilavasitə biz məcburi köçkünlərin didərgin salındığı torpaqların düşmən işğalından azad olunması uğrunda ən şirin nemət olan canını fəda edərək şəhid olan oğullarımızın ailələrinin hamıdan öncə mənzillə təmin olunması da məntiqlidir. Unutmamalıyıq ki, onların şəhidliyi sayəsində məhz bizim ata-baba yurdlarımız azad olunubdur. Bu nöqteyi-nəzərdən düşünürəm ki, dövlətimizin qərarı ədalətlidir. Əlbəttə, insanların çətinlikləri anlaşılandır. Bununla belə, hər bir vətəndaş, o cümlədən keçmiş məcburi köçkünlər də, hər kəs öz sahəsində əlindən gələni etməlidir ki, biz tez bir zaman da o torpaqlarımıza dönüb doğma yurdlarımızda yeni mənzillərlə təmin olunaq və burada çətin vəziyyətdə yaşayanlarımızın da problemi həll olunsun. Ali Baş Komandanımız başda olmaqla dövlətimiz bu mövzuda qərarlıdır və söhbətimizin əvvəlində də vurğuladığımız kimi, artıq ilkin vəsait ayrılıb, gərəkli əməli addımlar atılıb və Böyük Qayıdış proqramına start verilib...

***✍ Sultan Laçın***

## Statistika

**Ötən il ərzində xüsusi karantin rejimi dövründə fəaliyyətinə icazə verilən 10 232 nəfər taksi ilə sərnişindaşıma və 9 086 nəfər yükdaşıma xidməti göstərən sürücü barədə məlumatlar “icaze.e-gov.az” portalına yerləşdirilib.**

İl ərzində verilən 104 828 ədəd fərqlənmə nişanı üzrə 1 815 440 manat məbləğində vergi ödənilib. Bunlardan, 13 078 ədəd şəhərdaxili, 4 683 ədəd şəhərlərarası, 16 426 ədəd taksi, 63 656 ədəd yükdaşıma, 2 652 ədəd sifarişlə və 4333 ədəd xüsusi fərqlənmə nişanı təqdim edilib.

## Zəfər muzeyinin yerləşəcəyi məkan hələlik müəyyənləşməyib

**Mədəniyyət Nazirliyi Zəfər muzeyi və memorial kompleksinin yerləşəcəyi məkanın müəyyən olunması və bununla bağlı qərarın verilməsi barədə məlumatlara aydınlıq gətirib.**



Nazirlikdən hafta.az-a bildirilib ki, Zəfər muzeyinin yaradılması ilə bağlı bir sıra təkliflər hazırlanıb. “Hazırda Zəfər muzeyinin yeri ilə bağlı müzakirələr davam etdiyindən muzeyin yerləşəcəyi məkan dəqiq müəyyənləşdirilməyib”, - deyə qurumdan bildirilib.

**Əbülfəz Həmidov,**
Qazaxıstan Parlamentinin
azərbaycanlı deputatı



**Qazaxıstanın Parlament Məclisinə keçirilən son seçkidə deputat mandate qazananlardan biri də Əbülfəz Həmidovdur (Əbilfas Xamedov). Partiya siyahısı ilə deyil, Qazaxıstan Xalqları Assambleyası tərəfindən deputat seçilən azərbaycanlı millət vəkilinin bu ölkədə yayımlanan “Novaya Epoxa” saytına verdiyi müsahibəni oxuculara təqdim edirik. O, söhbətə Xalqlar Assambleyası haqda fikirlərini bildirməklə başlayıb:**

# “Azərbaycan Qazaxıstan üçün Qafqazda əsas tərəfdaşdır”

- Qazaxıstan Xalqları Assambleyası 1 mart 1995-ci il tarixində ölkənin Birinci Prezidenti - Elbaşı Nursultan Nazarbayevin təşəbbüsü ilə quruldu. Bu vətəndaş cəmiyyəti institutu bütün etnik qrupların mənafelərini birləşdirən, milli mənsubiyyətindən asılı olmayaraq, vətəndaşların hüquq və azadlıqlarına ciddi əməl olunmasını təmin edən Qazaxıstanın siyasi sisteminin vacib bir elementidir.

Qazaxıstan 130-dan çox etnik qrup üçün sözün həqiqi mənasında vətənə çevrilib və bu, Birinci Prezidentimiz Nursultan Nazarbayevin böyük xidmətinin nəticəsidir. Müstəqillik illərində vahid bir millət formalaşıb, eyni zamanda azərbaycanlılar da daxil olmaqla bütün etnik qruplar öz dilini, mədəniyyətini inkişaf etdirmək və öz medianı yaratmaq imkanı əldə etdi. İstisnasız olaraq bütün etnik qruplarla barışıq və əmin-amanlıq içində yaşamaq istəyirik. Yanvarın 11-də Nur-Sultan şəhərində, Qazaxıstan Xalqları Assambleyasının (QXA) XXVIII sessiyası açılıb və orada Parlament Məclisinin 9 deputatı bəlli oldu. Səsvermənin nəticələrinə görə, Qazaxıstan Xalqları Assambleyası tərəfindən seçilən bütün deputatlığa namizədlər, o cümlədən də mən Məclisə seçildik.

***- Uzun müddətdir “Qazaxıstan Azərbaycanlıları Assosiasiyası”na rəhbərlik edirsiniz. Soydaşlarımızın qazax torpağındakı mövqeyini necə qiymətləndirirsiniz?***

- Bu gün Qazaxıstanda 150 minə yaxın azərbaycanlı yaşayır. Onların əksəriyyəti bu ölkəyə çoxdan gəlmişdi - repressiyaya məruz qalanlar və ya sovet hakimiyyəti illərində ümum-İttifaq inşaat sahələrinə və toxunulmamış torpaqlara gələn, Sovet Ordusu sıralarında hərbi xidmətdən sonra qalanlar. Qazaxıstan hamımız üçün həqiqətən ortaq bir evə, ikinci vətənə çevrildi və bir çoxları üçün, məsələn, burada doğulub böyüyən mənim üçün bura birinci vətəndir. Mən, 2003-cü ildən “Azərbaycanlılar Assosiasiyası” Respublika ictimai təşkilatının sədri və Qazaxıstan Xalqları Assambleyasının üzvüyəm. 2018-ci ildə QXA sədrinin müavini idim. Dini və etnik mənsubiyyətimizdən asılı olmayaraq, Qazaxıstanda özümüzü bərabər hiss etməyimiz üçün hər cür şəraitin yaradıldığını vurğulamağı vacib hesab edirəm. Əlavə olaraq, bu, heç bir konfessiyaya üstünlük verməyən həqiqətən dünyəvi bir dövlətdir və burada heç kim öz dini mənsubiyyətinə görə sıxışdırılmış hiss etmir.

> *“Qazaxıstanla Azərbaycan arasında anlaşılmazlığa və ya fikir ayrılıqlarına səbəb olacaq heç bir siyasi məsələ yoxdur”*

***- Azərbaycan mədəniyyətinin, dilinin, ənənələrinin qorunub saxlanılması və inkişafı üçün şərait yaratmaq mümkün olurmu?***

- Adət-ənənələrimizi və mədəniyyətimizi inkişaf etdirərək, bir Azərbaycan musiqi ansamblı və bir rəqs qrupu yaratdıq, ”Vətən” Respublika qəzetini nəşr etdik, Azərbaycan dilində radio yayım proqramı açdıq. Bundan əlavə, müxtəlif dil, mədəniyyət və idman dərnəkləri təşkil edilib. Hər il müxtəlif mədəni tədbirlər keçiririk, qazaxlarla birlikdə həm Azərbaycan, həm də qazax milli bayramları qeyd edirik. Qazaxıstan Respublikasının iqtisadi və mədəni həyatında fəal şəkildə iştirak edirik - bizim hüquq-mühafizə orqanlarında, tibb müəssisələrində, biznesdə və ölkə iqtisadiyyatının müxtəlif sahələrində çalışan Azərbaycan millətindən olan nümayəndələrimiz var. Azərbaycan etnomədəni birliklərinin bir çox nümayəndələri orden, medal və yüksək dövlət mükafatlara layiq görülüb. Aramızda müxtəlif elmlər namizədi və doktoru adlarına layiq görülən insanlar var. Biz tez-tez sosial yönümlü humanitar aksiyalar həyata keçiririk. Belə ki, Almatı vilayətinin Kızılağaş şəhərində baş verən faciəli hadisələr zamanı bir sıra evlər tikdik və təmir etdik, bu kənddə yeni idman zalı və hamam kompleksi yaratdıq. Almatıda məşhur yazıçı Sabit Mukanovun adını daşıyan parkı yenidən qurduq. Qərbi Qazaxıstan vilayətində və Türküstan vilayətinin Maktaral rayonundakı daşqınların nəticələrinin aradan qaldırılmasında iştirak etdik. Qida və isti paltarları təmin etməklə, ilk tələb olunan yardım göstərdik, Türküstan vilayətinin Arıs şəhərində hərbi anbarın partlaması nəticəsində zərər çəkənlərə kömək etdik. Fəaliyyət göstərdiyim illər ərzində müxtəlif beynəlxalq və respublika konfranslarının və dəyirmi masaların iştirakçısı olmuşam. Bunun vacib olduğunu düşünürəm, çünki hamımız unutmamalıyıq ki, harada yaşayırıqsa, köklərimizi, ənənələrimizi, mədəniyyətimizi və tariximizi heç vaxt unutmamalıyıq. Hər zaman layiqli əməllərimizlə tarixi Vətənimizi şöhrətləndirməli, insanları qədim tariximiz və zəngin mədəniyyətimizlə tanış etməliyik. Biz, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmalıyıq. Eyni zamanda, biz unutmuruq ki, yaşadığımız ölkədə etdiyimiz hərəkətlər yalnız şəxsən bizim haqqımızda deyil, o cümlədən Azərbaycan xalqımız barədə təəssüratlar qoyur.

***- Qazaxıstandakı Azərbaycan diasporu Azərbaycanla Qazaxıstan arasında qardaş münasibətlərinin qurulmasında mühüm amillərdəndir. Yəqin ölkələriniz arasında münasibətlərin necə qurulduğuna bələdsiniz. Azərbaycanla Qazaxıstan arasında mövcud əməkdaşlığı təsvir edə bilərsinizmi?***

- Qazaxlarla azərbaycanlılar arasındakı münasibətlər uzun bir tarixə malikdir, Azərbaycan Qazaxıstan üçün qardaş, Qafqaz bölgəsində əsas tərəfdaşdır. Ölkələrimiz ikitərəfli ticarət və iqtisadi əlaqələrin inkişafına böyük əhəmiyyət verirlər. Hökumətlərarası komissiyası öz fəaliyyətini davam etdirir, mütəmadi olaraq biznes forumları keçirilir. Neft və qaz sahələrində ənənəvi əlaqələr gücləndirilir. Azərbaycanda Bakının küçələrindən birinə qazax xalqının dahi oğlu, maarifçi və mütəfəkkir Abay Kunanbayevin, Almatı şəhərində küçələrdən birinə isə şair Məhəmməd Füzulinin adı verilib. Bu yaxınlarda Bakıda Abay mədəniyyət günü, eyni zamanda Almatıda Azərbaycan mütəfəkkiri və şairi İmadəddin Nəsiminin mədəniyyət günü keçirilib. Qazaxıstanda Azərbaycan mədəniyyəti günləri və Azərbaycanda Qazaxıstan mədəniyyəti günləri keçirilir.

Almatıdakı Qazaxıstan Milli Universitetində Heydər Əliyev adına muzey açılıb. Xalqlarımız arasındakı dostluğun xüsusi əlaməti bu idi ki, 2020-ci ilin noyabrında bir neçə qazax politoloq və kinorejissor Azərbaycana gedərək Dağlıq Qarabağdakı müharibədən bəhs edən sənədli film çəkdi. Film Almatıda və Nur-Sultanda nümayiş etdirildi. Filmin müəllifləri Azərbaycanın ədalətli mövqelərini müdafiə etdilər. Bu, xalqımıza olan xüsusi münasibətin və ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsinə daha bir töhfənin göstəricisidir.

***- Yaxın gələcəkdə Qazaxıstanla dostluğumuzun perspektivlərini necə görürsünüz?***

- Qazaxıstanla Azərbaycan arasında anlaşılmazlığa və ya fikir ayrılıqlarına səbəb olacaq heç bir siyasi məsələ yoxdur. İqtisadi əməkdaşlıqda hər şey çox yaxşı gedir, artım var, amma inanıram ki, bu istiqamətdə əməkdaşlıq potensialı tükənməyib və bunun üzərində çalışmalıyıq. 90-cı illərin əvvəllərində ölkələrimiz arasındakı əməkdaşlığın əsası Ulu Öndər Heydər Əliyev və Elbaşı Nursultan Nazarbayev arasındakı dostluğu olub. Günümüzdə bu kurs iki ölkənin prezidentləri İlham Əliyev və Kasım-Jomart Tokayev tərəfindən uğurla davam etdirilir. Hesab edirəm ki, hazırda Qazaxıstan-Azərbaycan münasibətləri ən yüksək səviyyədədir və ”Azərbaycanlılar Assosiasiyası”nın idarə heyətinin rəhbəri olaraq, dost və iqtisadi münasibətlərimizin çiçəklənməsi və daha da möhkəmlənməsi üçün mümkün olan hər şeyi edəcəyəm.

***✍ Vüsal***

*Dünya artıq bir ildir ki, koronavirus adlı bəlanın cəngindədir. Müxtəlif ölkələrdə pandemiya əleyhinə vaksinlər hazırlanır və sınaqdan keçirilir. Azərbaycanın seçimi Pekində yerləşən Sinovac şirkətinin "CoronaVac" peyvəndi oldu. Şirkət koronavirus vaksinindən başqa, hepatit A və B, H5N1 quş qripi virusu, H1N1 donuz qripi və mövsümi qrip viruslarına qarşı peyvəndlər hazırlayır. Artıq ölkəmizdə dünəndən başlayaraq peyvənd kampaniyasına start verildi. İlk öncə peyvən olunanlar səhiyyə sisteminin rəhbərliyi oldu. Proseslə bağlı rəsmilərin açıqlamalarına diqqət yetirək. Dünyada bir neçə müasir şirkət COVID-ə qarşı vaksin istehsal edib.*



# Azərbaycanın CoronaVac peyvəndi seçimi



**Vaqif Qarayev,**
həkim-pediatr

Müzakirə

Artıq ölkəmizdə dünəndən başlayaraq peyvənd kampaniyasına start verildi. Peyvəndləmə hazırda poliklinikalarda həyata keçirilir. Hafta.az vəziyyətlə yerində tanış olmaq üçün vaksinasiya aparılan tibb müəssisəsinə üz tutub.

Dayanacağımız 16 nömrəli Şəhər Poliklinikası oldu. Əvvəlcə onu deyək ki, klinikada ayrıca olaraq vaksin şöbəsi yaradılıb.

**Poliklinikanın baş həkimi Sara Çaparlının sözlərinə görə, brifinqdə də deyildiyi kimi, dünəndən etibarən koronavirus əleyhinə peyvəndləməyə başlanılıb. İlkin mərhələdə tibb işçiləri üçün nəzərdə tutulduğundan, artıq tibb müəssisəsinin əksər əməkdaşları vaksinasiya olunub.**

"Bu hər kəsin sağlamlığı üçün zəruridir. Elə bizim əməkdaşlarımız özləri müraciət edib ilk gündən vaksinasiya olundular. İnanıram ki, vaksin vurulduqdan sonra yoluxma zənciri qırılacaq. Bildiyimiz qədəri ilə fevral ayının 1-dən 65-yaş üstü şəxslər peyvəndlənəcək".

Baş həkim onu da qeyd etdi ki, artıq ilk gündən etibarən sadə vətəndaşlar da peyvənd olunmaq üçün poliklinikaya müraciətlər edir:



"Biz onları qeydiyyata alırıq. Peyvənləmə başladıqda növbəli şəkildə ilk olaraq indi qeydiyyatdan keçən vətəndaşlar çağırılacaq".

■ **Daha sonra baş həkimin müavini də peyvəndləmə ilə bağlı fikirlərini bizimlə bölüşdü. O da vurğuladı ki, tibb işçiləri arasında peyvəndləmə könüllü şəkildə həyata keçirilir:**

"Biz artıq peyvəndin ilkin mərhələsini etdirmişik. Həmçinin elektron sistemdə də qeydiyyatdan keçmişik. İlkin mərhələdə peyvənd vurduran hər kəs sistemdə qeydiyyata alınır. 21 gün sonra, ikinci peyvəndin ardından həmin şəxslərə vəsiqə verilir.

Qeyd edək ki, 2-ci mərhələ fevralın 1-dən başlanacaq və tibbi cəhətdən yüksək risk qrupu (tənəffüs sistemi, hemodializ, şəkərli diabet, piylənmə kimi xroniki xəstəlikləri olanlar), 50 yaş və daha yuxarı, ən azı, bir xroniki xəstəliyi olan şəxslər, təhsil və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, ASAN Xidmət və DOST mərkəzləri, ictimai nəqliyyat sektorunun, telekommunikasiya operatorları və provayderlərinin və poçt sahəsində birbaşa əhali ilə təmasda olan işçilərin və bank sektorunun birbaşa əhali ilə təmasda olan hissəsi, yüksək riskli şəraitli işlərdə çalışan (cəmiyyətin fəaliyyəti üçün həyatı vacib sahələrdə çalışan - milli və regional təhlükəsizlik, ədliyyə, maliyyə və s.) şəxslər iştirak edəcək.

*"İmmunitet yaranması üçün vaksinasiya mütləq şəkildə vacibdir*

Bu gün əlamətdar gündür. Çünki Azərbaycan vaksinasiyaya başlayan ilk ölkələrdən biridir. Çalışdıq ki, mövcud vaksinlərin ən təhlükəsizini seçək və əhaliyə tətbiq edək. Düşünürəm ki, qısa zamanda bunun təsirini də görəcəyik və COVID-19 pandemiyasına son qoyan ilk ölkələrdən biri olacağıq. Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev deyib. Z.Əliyev bildirib ki, vaksin strategiyasına görə ilk olaraq tibb işçiləri vaksinasiyadan keçməlidirlər: "Bu gündən prosesə başlanılıb. Ümid edirəm ki, proses xalqımız və vətənimiz üçün uğurlu olacaq".

Bəs görəsən, yerli həkimlər peyvəndin gəlişini nə cür qiymətləndirir? "CoronaVac" vaksininə etimad hansı səviyyədədir?

■ **Hafta.az yaranmış sualların müzakirəsini peşəkar həkimlər ilə apardı. İlk olaraq həkim-pediatr Vaqif Qarayev öz fikirlərini bizimlə bölüşdü.**

Həkim deyir ki, bütün bu tipli epidemiya və pandemiyalarda insanları qorumaq üçün iki çıxış yolu var - ya karantin, ya da peyvənd. Hər iki vasitə müalicə metodu deyil, sadəcə qorumaq məqsədilə görülən tədbirlərdir.

"Karantindən, təbii ki, heç kəs razı deyil, lakin özümüzü qorumağın başqa yolu yoxdur. Elə cəmi biraylıq sərt karantinin tətbiqi öz effektini verdi. Daha öncə elə sosial şəbəkələrdə də kimə baxsan, hamısı koronaya yoluxmuşdu. Mənim hazırda şəxsi fikrim karantinin qüvvədə qalması, bununla paralel peyvəndləmənin həyata keçirilməsidir". V.Qarayev onu da vurğuladı ki, immunitet yaranması üçün vaksinasiya mütləq şəkildə vacibdir. Ölkəmizdə istifadə olunacaq Çin vaksininə gəldikdə isə onu bütün dünya qəbul edib: "Peyvəndlər bəlli şərtlər əsasında qəbul edilir.

*Təhlükəsizlik;*
*Təhlükəli yan təsirlərin olmaması;*
*Effektivlik;*
*İmmunitet yaratsın.*
Saxlanma, daşınma və qiyməti münasib olsun.



**Nicat Əzimli,**
infeksionist

*"Biz həkimlər olaraq, peyvəndin risksiz olmasını sınaqlar əsasında hesablayırıq*

Bu gün dövriyyədə olan bütün peyvəndlər bu standartlara cavab verir. Almaniya istehsalı olan vaksin var ki, o, yüksək mənfi temperaturda saxlanmalıdır. Bunun üçün xüsusi soyuducu konteynerlər lazımdır. Poliklinikalarda belə vaksinlərin saxlanması üçün şərait yoxdursa, deməli, bu peyvənd əlverişsizdir. Çin istehsalı olan peyvənd bütün bu amillər nəzərə alınaraq ölkəmizə gətirilir.

Dünyada, eləcə də Çində artıq milyonlarla insan peyvənd etdirib". Mütəxəssisin sözlərinə görə, vaksinə olan inamsızlıq tək koronavirusla bağlı deyil.Ölkə əhalisinin bir qismində, təəssüf ki, bütün növ peyvəndlərə qarşı xof var:

"Elm qəbul edir ki, tək koronaya qarşı olan deyil, elə bütün peyvəndlər əks-təsir göstərə bilər. Burada ciddi fəsadlardan söhbət getmir. Bəzi insanlarda qızdırma, baş və oynaq ağrısı kimi halların yaşanması normaldır. Həkim olaraq inanıram ki, vaksinasiya yoluxma zəncirini qıracaq. Yəqin ki bir müddət sonra özəl şirkətlər koronavirusa qarşı digər peyvəndləri də ölkəyə gətirəcək. Həmin peyvəndlər ödənişli olacaq, seçim yenə də əhaliyə qalır".

■ **Digər müsahibimiz infeksionist Nicat Əzimli oldu. O bildirir ki, hazırda istifadə ediləcək peyvənd milyonlarla insan üzərində sınaqdan keçirilib:**

"Əhali arasında yüksək fikir dolaşmasa da, əminik ki, effektiv nəticə əldə olunacaq. Ümumiyyətlə, peyvəndləri ölkə istehsalı və digər amillərə görə qiymətləndirmək yanlış düşüncədir. İşin içində olmayan insanlar təəssüf ki, məsələni səhv dəyərləndirir. Biz həkimlər olaraq, peyvəndin risksiz olmasını sınaqlar əsasında hesablayırıq. Əks-təsirə gəldikdə isə yalnız və yalnız allergik reaksiyalardır. Bu da hər bir preparatda qarşılaşdığımız vəziyyətdir. Hər hansı bir risk olsaydı, bu zaman kütləvi istifadəyə icazə verilməzdi. Qalıcılıq və effektivlik isə zaman keçdikcə özünü göstərəcək".

*✍ Banu*

---

QƏHRƏMAN DÖYÜŞÇÜLƏRİMİZİ TANIYAQ

# "Şuşaya kəndirlə dırmandıq..."

## Döyüşçünün cəbhə xatirələri



**Azərbaycan Ordusu, təxminən, otuz ildir Ermənistan ordusunun işğalı altında qalmış torpaqlarımızı azad etdi. Təbii ki, 3 min civarında şəhid verdi, minlərlə əsgərimiz yaralandı, amma düşməni Vətən torpaqlarından qovub-çıxarmağı bacardı. Torpaqlarımızın azad edilməsində iştirak etmiş və ilk gündən döyüşlərə atılaraq, qələbə gününü Şuşada qeyd edən şanlı əsgərlərimizdən biri də Cəmildir - Cəmil Qəribov. Göyçayın Hüngütlü kəndində yaşayır. Ailənin tək oğludur, bir bacısı da var, amma çoxdan ailə qurub köçdüyündən bu gün valideynlərinin tək təsəllisidir.**

### "Neçə əsgər yoldaşım həlak oldu..."

**Cəmillə qapıbir qonşusu və qohumu, körpəlikdən bir yerdə böyüdüyü ən yaxın dostu Fəridgildə söhbətləşdim. Ali Baş Komandan tərəfindən "Füzulinin azad edilməsinə görə" medalı ilə təltif edildiyini, üstəlik, cəbhədə olduğu 90 gün üçün bəlli bir miqdarda pul da alacağını sevinclə dilə gətirən qəhrəmanımız deyir ki, bütün bunlar dövlətin müharibə iştirakçılarına qayğısını göstərir...**

Cəmil deyir ki, ehtiyatda olan hərbi qulluqçu kimi, orduya ikinci dəfə sentyabrın 21-də çağırılıb, ayın 27-də - torpaqlarımızın azad edilməsi uğrunda əks-hücum əməliyyatları başlayan kimi Cəbrayıl istiqamətində döyüşlərə atılıb. "İlk gün müharibənin zəhmi bir az qorxudurdu, özümdə narahatlıq, stres hiss edirdim. Sutka boyu atışma gedirdi, hər an gülləyə tuş gələ və ya ani partlayacaq bombanın, raketin qurbanı ola bilərdim. Bütün narahatlıqlar 1-2 günə ötüb-keçdi. Müharibənin amansız qaydalarına uyğunlaşmışdım, nə bomba, nə güllədən qorxurdum, bütün istəyim irəli getmək, heç olmaya bir düşməni öldürüb heyfimi çıxmaq idi", - gənc qəhrəmanımız deyir.

Cəmilin sözlərinə görə, onun üçün müharibənin ən böyük dəhşəti bir yerdə yeyib-içdiyi, söhbət etdiyi əsgər yoldaşını itirmək idi. "Neçə əsgər yoldaşım həlak oldu... Çiyin-çiyinə irəli şığıdığımız əsgər bir anın içindəcə şəhid olurdu, bu çox ağır idi. Xüsusilə də Cəbrayıl şəhərini alarkən çox şəhid verdik. Düşmən bu ərazidə çox güclü mövqe tutmuşdu, yəqin ona görə ki, şəhərin Azərbaycan Ordusu tərəfindən azad edilməsinin erməni əsgərlərdə ruh düşkünlüyü yaradacağından qorxurdular. Allahın izni ilə şəhəri azad etdik. Tək biz şəhid vermirdik, düşmən bizdən iki dəfə çox itkiyə uğrayırdı. Heç meyitlərini döyüş meydanından çıxarmağa səy də göstərmirdilər, zərbələrimizə tab gətirməyərək qaçırdılar", - deyən müsahibimizə görə, müharibədə iştirak etdiyi 44 gün ərzində ən şiddətli döyüşü Füzulidəki "Vodoprom" deyilən ərazidə yaşayıb. Deyir, burada düşmən işğal dövründə möhkəmlənmək üçün nə lazımdırsa etmişdi. Yerin altı da cəbbəxana idi, üstü də. Bu istehkam yüksək döyüş hazırlıqlı Azərbaycan Ordusunun qarşısında bir neçə günə darmadağın olub, düşmən cəbbəxanası ilə birlikdə məhv edilib.

### Hər gün 5-10 kəndi azad edirdik

**Cəmilin dediklərindən: "Buranın coğrafi relyefi fərqli idi, iki dağ arasında uzanan dərə tuneli xatırladırdı. Təsəvvür edin: irəli getmək üçün həmin tuneli keçmək lazım idi, ora da düşmən tərəfindən bağlanmışdı.**

Döyüş boyunca ən çox şəhidi, deyərdim ki, elə orda vermişik. Bölükdə qonşu kənddən bir əsgər vardı - Toğrul. Çox yaxşı xasiyyəti vardı, ən azından, eyni rayonlu - yerli kimi isti münasibət qurmuşduq. "Vodoprom"da döyüşə ağır yaralandı, güllənin altından çıxarsaq da, sonradan eşitdim ki, həkimlər xilas edə bilməyib, qan aparıb, şəhid olub. Çox qəribədir, "Vodoprom"u azad edəndən sonra cəbhə boyunca quş kimi uçurduq. Elə gün olurdu, bir sutkada 3, bəzən 5, hətta 10 kəndi təpələrlə birlikdə azad edirdik. Düşmənin dirənişi qırılmışdı, tankı-topu, əllərindəki avtomatı belə ağırlıq etməsin deyə atıb qaçırdılar. Təsəvvür edin, Hadrut kimi iri şəhər tipli qəsəbəni



bir göz qırpımında azad etdik. O qədər gözəl yerdir ki Hadrut... Küçələri asfalt, evləri-binaları hazır, gir yaşa. Suyu, işığı, qazı yerində, dükanlar, aptekləri dolu. Hərbi hospital da vardı, bu da biz əsgərlərə lazımlıydı".

Cəmil deyir ki, ordakı hər bir əsgər kimi onun da ürəyində bir arzu vardı: Şuşaya bayraq sancmaq. Deyir ki, Cəbrayılı, Füzulini, Hadrutu, yüzlərlə kəndi, dağı-təpəni azad etmişdilər, hamısı vətən torpağıdır, amma Şuşasız uğurlarında çatışmazlıq duyurdular. Ona görə də bütün fikirlərini Şuşanı azad etməyə kökləmişdilər. Əslində, Hadrutu azad edəndən sonra bu zəfər qalamıza gedən yol daha da qısalmışdı. Əsas məsələ Daşaltını ermənilərdən təmizləməklə yolu açmaq idi. Nəhayət, həmin an yetişdi, kəndə sarı hücum başladı. "Ərazisi çox keçilməz - dağlıq-qayalıqdır. Böyük kənddir, bir tərəfi üstündə Şuşanın yerləşdiyi sıldırımlı dağla əhatə olunur. Ermənilər təşviş içindəydilər, döyüş ruhları tamamilə ölmüşdü deyə Daşaltını azad etmək bizə çətin olmadı", - müsahibimiz deyir.

### Düşmən bizi oradan gözləmirdi

**Cəmil Şuşanın təmizlənməsi prosesini belə nağıl edir: "İçi mən qarışıq, hər bir əsgərin arzusuna çatacağı an yetişmişdi - Şuşa şəhərinin azad edilməsi üçün hücuma başlamışdıq. Şuşaya əsasən bir yol vardı, o da Xankəndi istiqamətindən qalxırdı**.

Oranı isə erməni ordusu ağır texnika ilə bağlamışdı. Biz hücumda o yolu seçmədik, şəhərin arxa tərəfindən - dağın dik-sıldırım yamacından daxil olmaq haqqında əmr aldıq. Kəndirlərlə qayalara dırmanmaq olduqca çətin idi, üstəlik, üzərimizdəki silah çəkimizi bir az da ağırlaşdırırdı. Arzu isə elə hissdir ki, ona yetmək üçün heç bir çətinlik adama əngəl ola bilməz. Beləliklə, şəhərə əks-tərfdən daxil olduq. Düşmən bizi oradan gözləmirdi, qəfil hücuma keçdik, pərən-pərən düşdülər. Silahla, əlimizdəki adi bıçaqlarla, hətta əlbəyaxa döyüşlə məhv etdiyimiz erməni leşləri küçələrdə sərilib-qalmışdı. Qısa vaxtda Şuşanı azad elədik, ona görə də çox xoşbəxtəm. Ömrüm boyu da Şuşanı azad edənlərdən biri olduğum üçün fəxr edəcəyəm". Qəhrəmanımız daha sonra deyir ki, Şuşanın hər şeyi bir yana, havası çox təmizdir. Noyabrın 3-dən 27-dək - ordudan tərxis olunduğu günədək orada olub. Ermənilərin xaraba günə qoymasına baxmayaraq, Şuşa cənnətdir. "Bütün şəhəri gəzmişəm, minarəsi, içi uçurulub dağıdılmış məscidə getdim, məhşur həpsxanaya da baş çəkdim. Çox təəssüf ki, muzeylərimizi, tarixi abidələrimizi, ümumiyyətlə, bizə ain olan hər şeyi ya məhv ediblər, ya da özləninkiləşdirməyə çalışıblar. Məsələn, məscidin divarına xaç çəkiblər, bu olan şey deyil axı. Əvvəl azad etdiyimiz yerlərdən fərqli olaraq, Şuşada evlərin əksəriyyəti yerindədir. Bizə aid evlərdən də qalıb, işğal dövründə özləri də tikiblər. Beş, doqquzqatlı binalar gördüm, otel vardı. Ermənilər orada yaşayırdı axı, ağıllarına da gəlməzdi ki, Azərbaycan Ordusu Şuşanı azad edib əsl sahiblərinə qaytaracaq. Şəhərdə kilsələri də var, elə bəzəyiblər ki, işıq saçır. Bununla da oranın xristian-erməni şəhəri olduğunu göstərməyə çalışıblar", - deyən müsahibimizin sözlərinə görə, Şuşanın mövqeyi elədir ki, regionda hər yerdən yuxarıdadır. Şəhərin açıq bir yeridən baxanda Laçını, Xankəndini görmək mümkündür. "Xüsusilə də Xankəndini, böyük şəhərdir, gecələr şəhərdə işıqlar yananda elə qəşəng görünürdü ki...", - təəssüflə əlavə edir.

### Əsirlər Paşinyanı söyürdülər...

**Müsahibimiz deyir ki, əslində, ermənilər çox qorxaqdırlar, döyüşməmək üçün silahı atıb təslim olurdular. "Təsadüfən mülki adamlar da tuturduq. Məsələn, bir qadın tutmuşduq, deyirdi guya satıcı işləyir, hamı qaçıb, o qalıb. Sonradan bəlli oldu ki, yalan danışır, hərbçidir, özü də komandirin yaxınıymış.**

Bəzən hərbçiləri də əsir götürürdük. Hər biri bütün günahları erməni komandanlığında, xüsusilə də Paşinyanda görür, onu ən kəskin şəkildə söyürdülər. İnanmazsınız, kənardan baxan deyər biz onları məcbur edirdik Paşinyanı söyməyə, Vallah yox, özləri söyürdülər. Biri vardı, deyirdi onu Qarabağa zorla gətiriblər döyüşməyə, hansı ki, gəlməmək üçün çox fırıldağa əl atıb, xeyri olmayıb. Onlar özləri deyirdilər ki, döyüşdükləri bu torpaqların Azərbaycanın olduğunu yaxşı bilirlər, amma nə etsinlər, siyasətçilər onları zorla ölümə məhkum edir", - Cəmil sözünə davam edir.

Qəhrəmanımız deyir ki, döyüşlərin getdiyi 44 gün ərzində torpağın üstündə, yağışlı havalarda bir qayafilan tapıb altında növbəli şəkildə gözlərinin yuxusunu alıblar. Bu da təbidir, çünki dünyanın harasında olur-olsun, döyüş meydanında rahatlıq axtarılmır. Deyir ki, amma insafən, yemək-içməklərinə söz ala bilməzdi. Ön cəbhədə olsalar da, yeməklərini vaxtlı-vaxtında, həm də ən yaxşısından veriblər. "O vaxt ermənilər bizim camaatı ayaqyalın qovmuşdular, amma biz bu vəhşiliyi etmədik onlara qarşı. Düzdür, mülki əhali biz yaşayış yerinə çatmadan ev-eşiyini atıb, əlbəttə imkanı olan nəyi vardı götürüb qaçmışdı, ancaq biz yenə də onların evlərini talan etmirdik. Kimsə nəsə götürsün, ağlına belə gətirmirdi, yəqin bu bizim milli xüsusiyyətimizdən irəli gəlir. Üstəlik, komandanlıqdan əmr vardı: mülki insanlara qətiyyən zərər vermək olmaz! Bir söz də deyim: müharibədə biz əsgərlərə ən çox dronlar kömək elədi.

Səsi gələndə adamı vahimə basırdı. And olsun ki, dronun səsini eşidəndə ermənilər siçan deşiyi axtarırdı gizlənməyə. Tankdan düşüb qaçırdılar, bilirdilər ki, saniyələr sonra dron məhv edəcək onları. Özü də əvvəl səsi eşidəndə çaşıb-qalırdılar. Yəqin ki, dronun nə olduğunu ya bilmidilər, ya da müharibədə onunla üzləşəndə nə edəcəklərinə dair təlim keçməmişdilər. Bir onu bilirəm ki, müharibənin sonlarına yaxın ermənilər texnika tapmırdı bizə qarşı çıxarmağa, dronlar hamısını bir-bir dənləmişdi", - deyir Cəmil.

*✍ Vüsal*

# 20 yanvar Yaddaşlara həkk olan qara tarix

**1990-cı il yanvarın 19-dan 20-nə keçən soyuq qış gecəsi... Həmin gün Azərbaycan tarixinə tək faciə olaraq deyil, eləcə də xalqın diriliş günü olaraq həkk olundu. O gün milli birlik, istiqlaliyyət, qanla qazanılmış Azadlıq günümüzdür həm də... 31-il öncə 20 yanvar gecəsi, xalqın azadlıq hayqırışını qanla boğmaq istəyən sovet hökuməti dinc əhaliyə görünməmiş divan tutdu.**



Heç bir güc azadlığa susamış millətin iradəsini qıra bilmədi. Əli yalın tank önündə dayanan həmvətənlərimizin, əzmi və iradəsi nəhəng imperiyanın süqutunu gətirdi o gecə.

31 il öncə, 21 yanvar günü "qanlı yanvar"ın qəhrəman şəhidləri xalqın müşayiəti ilə Azadlıq meydanından keçərək Şəhidlər Xiyabanında dəfn edildilər. O gün 120-dən çox məzar qazılmışdı, 5 saat çəkən dəfn mərasimindən geriyə qoca bir tarix qaldı. Hə, bir də aralarında 25 yaşlı naməlum gənc də olmaqla, onlarca şəhidin məzarı...

■ **Hafta.az-ın əməkdaşı 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Şəhidlər Xiyabanını ziyarət edənlər ilə həmsöhbət oldu.** Əvvəlcə onu qeyd edək ki, Xiyaban başdan-sonadək çiçəklərlə bəzədilib. Sanki boynubükük qərənfil də qırmızısını şəhid qanından alıb. Məzarları üzərinə güllər düzülüb, şamlar yandırılıb. Havanın soyuq və küləkli olmasına baxmayaraq, insanlar xiyabana axın edirlər.

■ **Xiyabanın girişində və bir neçə fərqli nöqtəsində çiçəklərdən müxtəlif kompazisiyalar yaradılıb.** Qara yanvarın qırmızı simvolu olan minlərlə qərənfildən 20 yanvar yazıları düzəldilib. Elə Xiyabana təzəcə gəlmişdik ki, məzarlar önündə dualar oxuyan ortay-

## Anım

aşlı 3 qadın diqqətimizi çəkdi. Yaxınlaşıb bir qədər həmsöhbət olduq. Hər biri o günlərin canlı şahidləri olaraq, şəhidlərimizin əbədi ruhunu yad etməyi özlərinə borc bildiklərini söylədi. Ziyarətçi Xanım xanım o anları belə xatırlayır:

"İlk növbədə, Allah bütün şəhidlərimizə rəhmət etsin, ruhları şad olsun. Məhəlləmizdən şəhid olanlar var idi. Həm onları, həm də digər şəhidlərimizi yad etməyə gəlmişik. O vaxt mənim həyat yoldaşım da həmin hadisələrdə iştirak edib. Atəş səsləri hələ də qulağımdan getmir. Silahların qığılcımları gecənin qaranlığını aydındırdı. Evimiz hava limanına yaxındır. Gecə həyat yoldaşım qan içində evə gəldi. Dedi ki, "Bayırda millətə divan tutdular. Biri məni silahın qundağı ilə vurdu. Daha sonra alnıma tuşlayıb, nə düşündüsə, öldürməkdən vaz keçdi". Qonşumuz Zahid həyatını itirmişdi. Yoldaşım onun daxili orqanlarını öz əlləri ilə yığışdırmışdı. Çox ağır günlər idi. Allah xalqımıza bir daha elə dəhşətlər yaşatmasın".



■ **Elə qəmli, bir o qədər də qürurlu ab-hava ilə yolumuza davam etdik.** Daha sonra ailəsi ilə birlikdə xiyabanı ziyarət edən Toğrul Quliyevin



də düşüncələrini öyrəndik. O söyləyir ki, şəhidlərimizi yad etmək, hər birimizin vətəndaşlıq borcudur: "Mən də bu gün ailəm, övladlarımla birlikdə hər il olduğu kimi yenə xiyabanı ziyarət edirəm. Biz tariximizi, övladlarımıza aşılamalıyıq. Gələcək nəsillər öz qəhrəmanlarını tanımalıdır. Qoy onlar da bilsinlər ki, bu torpaqların hər qarışı, hansı fədakarlıqlarla qorunub. Basdığımız torpaq bizim üçün müqəddəsdir".

■ **Xiyabanı ziyarət edənlər arasında Nəsimi rayon 19 nömrəli məktəbin təşkilatçı müavini Ülviyyə Məmmədova və şagirdləri də var idi.** Onlar da bir-bir məzarları dolaşır, üstlərinə qərənfillər düzürdülər. Müəllim deyir ki, biz hər il ziyarətə şagirdlərimizlə birgə gəlirik. Düşünürəm ki, şəhidləri yad etmək hər birimizin vətəndaşlıq borcudur:



"Şəxsən mən bura hər gələndə, mənəvi rahatlıq tapıram. əlimizdən başqa nə gəlir ki? Dualar oxuyub, məzarlara çiçək düzməkdən başqa...

Bu gün də burada çox gözəl kompozisiyalar qurublar. Düşünürəm ki, qərənfil elə əzəldən bizim şəhidlərimiz üçün var olub".

Ülviyyə xanım onu da qeyd etdi ki, Vətən müharibəsində tarixi zəfəri qazanan Azərbaycan əsgəri də elə müəllimlərin yetişdirdiyi övladlardır. Bu səbəbdəndir ki, şagirdlərə şəhidini tanıtmağı özümə borc bilirəm.



■ **Daha sonra 20 Yanvar hadisələrini azyaşlıların dilindən də eşidək dedik. Balaca ziyarətçilər - Xədicə və Ruslan Əhmədzadələr valideynləri ilə birgə şəhidlərimizi yad edirdilər.** Addımbaşı analarından gördükləri şəhid haqqında sual verən balacalarla qısa bir söhbət apardıq.

"Ruslar günahsız insanları öldürüblər həmin gün. Valideynlərim deyir ki, 20 yanvar gecəsi, silahsız insanlar tankın qarşısında dayanıb, bizim azadlığımız üçün canlarından keçiblər".

Bəli, bu gün ölkədə uşaqdan-böyüyə kimi dindirsən, o günlərlə bağlı danışacaq çox sözü var. Tarix heç nəyi unutmur. 31 il öncə, onlarla günahsız insanın qanı töküldü, ardınca isə əbədi azadlığımız bərqərar edildi. O gün zəncirlərini qırıb sovet əsarətindən qurtulan Azərbaycan xalqı, bu gün eyni iradə ilə Qarabağa doğru getdi. Yolumuz hər zaman zəfər olsun. Allah bütün şəhidlərimizə rəhmət etsin.

✍ *Banu*

# Mədəniyyət Nazirliyi ictimaiyyətə müraciət edib

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

**Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun qazandığı şanlı Qələbə hər birimizin yaddaşında əbədi həkk olundu.**

Bu Qələbə qəhrəman şəhidlərimizin canı-qanı, qazi hərbçilərimizin rəşadəti, əzmi və xalqımızın öz Ordusuna və Ali Baş Komandanına inamı sayəsində əldə edildi. İndi isə gəlin, bu Zəfəri bizə yaşadanların xatirəsini əbədiləşdirmək üçün birgə səy göstərək. Bu fikirlər Mədəniyyət Nazirliyinin yanvarın 18-də ictimaiyyətə müraciətində yer alıb. Müraciətdə deyilir: "Azərbaycan Respublikası Prezidentinin 3 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi yaradılacaq. Mədəniyyət Nazirliyi hər kəsi Zəfər muzeyinin fondunun yaradılması ilə bağlı dəstək göstərməyə çağırır. Fondun təşkil edilməsi məqsədilə Vətən müharibəsində iştirak etmiş hərbçilərə, həkimlərə, şəhid olanlara, qazilərə məxsus şəxsi əşyalar, sənədlər, o cümlədən işğaldan azad edilən ərazilərimizə aid olan maddi-mədəniyyət nümunələri, xəritələr, gerblər və digər əşyaları olan vətəndaşlarımızdan 18 yanvar 2021-ci il tarixindən başlayaraq həmin nümunələri, pandemiya ilə əlaqədar tətbiq olunan sanitar-epidemioloji və karantin qaydalarına riayət etməklə, Azərbaycan İstiqlal Muzeyinə təhvil vermələri xahiş olunur".

## O gecə

Küləklər şəhəri, odlar diyarı
Xəzərin qoynunda mürgü vurarkən,
Gəldi üstümüzə düşmən tankları
Qaranlıq çökərkən, şər qarışarkən.

Elan edilməmiş müharibədə
Ruslar hücum çəkdi şəhərimizə.
Yağdı başımıza güllə yağmurtək
Düşmən plan qurdu, tor qurdu bizə.

Atəşə tutdular dinc əhalini
Evlər dəlik-deşik oldu gülləden.
Duyura bilmədik ah-naləmizi
Olmadı nə görən, nə də eşidən.

Kəsildi naqillər, kəsildi tellər
Telefon zəngləri susdu o gecə.
Kimsə səs vermədi heç səsimizə
Dünya sağır oldu sanki o gecə.

Min bir bəhanəylə, min bir hiyləylə
Yol tapıb ölkəmi yol eylədilər.
Mundar Qorbaçovun siyasətiylə
Bakımın bağrını qan eylədilər.

Şəhərin silahsız vətəndaşları
Düşmən qarşısına çıxdı o gecə.
Suçsuz insanların axdı qanları
Bakı qan gölünə döndü o gecə!

Milli azadlıqçün, suverenlikçün
İgidlər canından keçdi o gecə.
Bugünkü müstəqil Azərbaycançün
Şəhidlik şərbətin içdi o gecə.

Vətən torpağına, vətən daşına
Axdı şəhid qanı, axdı o gecə.
Yazıldı tarixin qan yaddaşına
"20 Yanvar" adlı o qanlı gecə!

✍ *Könül Eldarqızı*

# İl ərzində yüzlərlə insana təmənnasız tibbi xidmət göstərilib - "Azercell"

R

**Sosial yönümlü layihələrə böyük önəm verən Azercell şirkətinin Mobil Göz və Mobil Diş Klinikaları 2020-ci il ərzində fəaliyyətlərini davam etdiriblər.**



"Azercell Telekom" MMC-in təşəbbüsü və dəstəyi ilə yaradılan klinikanın həkimləri koronavirus pandemiyasının (COVİD-19) dünyada tüğyan etdiyi ağır dövrdə belə ölkə üzrə bir çox internat məktəblərinə, uşaq evlərinə, aztəminatlı ailələrin yaşadığı məkanlara səfər edərək yüzlərlə ehtiyacı olan insana yardım ediblər. "Azercell"in Mobil Göz Klinikası sentyabr ayında Sabunçu rayonu, Şuşa qəsəbəsində yerləşən "Nur" uşaq evini, Yasamal rayon Əlillər Təşkilatı İctimai Birliyini və Xaçmaz rayonunda fəaliyyət göstərən uşaqlar üçün İcma əsaslı Sosial Reabilitasiya mərkəzini ziyarət edərək körpələrə və sağlamlıq imkanları məhdud şəxslərə təmənnasız tibbi xidmət göstərib. 8 oktyabr "Ümumdünya Görmə Günü" münasibətilə Azercell-in Mobil Göz Klinikası torpaqlarımızın müdafiəsində cəsurca dayanaraq şəhidlik zirvəsinə ucalan əsgərlərimizin ailələrinə, birinci Qarabağ müharibəsi iştirakçılarına və qazilərimizə, eləcə də 30 ilə yaxın öz daimi yaşayış yerlərindən məhrum olub, qaçqın və məcburi köçkün statusunda yaşayan vətəndaşlarımıza qapılarını açaraq onlar üçün ödənişsiz göz müayinələri və müalicələri təşkil edib.

Noyabr ayının 24-ü klinika məcburi köçkünlər üçün salınmış "Qobu Park" qəsəbəsinə səfər edib. "Azercell Telekom" MMC, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) Azərbaycandakı Nümayəndəliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və "Xəzər Qayğıkeşlik Layihəsi" təşkilatının birgə iştirakı ilə həyata keçən sosial aksiya zamanı Azercell-in Mobil Göz Klinikasında çalışan peşəkar həkimlər qəsəbənin sakinlərini optometrik müayinədən keçirib, görmə qabiliyyəti zəif olan vətəndaşlara isə Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) Azərbaycandakı Nümayəndəliyinin vasitəçiliyi ilə Yaponiyanın "Fuji Optical" şirkətinin ianə etdiyi yüksək keyfiyyətli optik eynəklər paylanılıb.

2020-ci il ərzində 161 insana ödənişsiz göz müayinəsi və müalicəsini təşkil edən Azercell-in Mobil Göz Klinikası, 9 illik fəaliyyət dövrü ərzində 7125 vətəndaşımıza təmənnasız tibbi yardım göstərib.

Ən müasir avadanlıqla təchiz olunmuş Azercell-in Mobil Diş Klinikası da pandemiya şəraitində çalışaraq təkcə avqust və sentyabr aylarında Pirallahı qəsəbəsində 200-dən çox xəstəni müayinə və müalicə edib. 2010-cu ildən etibarən fəaliyyətə başlayan klinika bu günə kimi ümumilikdə 8006 nəfərə xidmət göstərib. Xatırladaq ki, hər iki klinikada müayinə və müalicə tədbirləri "Azercell Telekom" MMC-nin dəstəyi ilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyinin həkimləri tərəfindən həyata keçirilir.

## GÜNÜN FOTOSU



ABŞ polisi innaqurasiyaya hazırlaşır...

## "Azərbaycan Qazaxıstan üçün Qafqazda əsas tərəfdaşdır"

**Əbülfəz Həmidov,**
Qazaxıstan Parlamentinin azərbaycanlı deputatı

Qazaxıstanla Azərbaycan arasında anlaşılmazlığa və ya fikir ayrılıqlarına səbəb olacaq heç bir siyasi məsələ yoxdur

⏩ Səh. 6

## STATİSTİKA



■ Böyük şəhərlərin sakinləri orta hesabla ömürlərinin 6 ayını işıqforda yaşıl işığın yanmasını gözləməklə keçirirlər.

■ Dünyada 73 faiz kişilər həyat yoldaşları ailəni dolandıra biləcəyi halda ev işləri ilə məşğul olmağa hazırdırlar.

■ İnternetdə 1 saniyə ərzində 9473 tvit atılır, instaqramda 2262 foto yerləşdirilir, 1787 skayp danışığı qeydə alınır.



⏩ Səh. 7

# Azərbaycanın CoronaVac peyvəndi seçimi